

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 104 (7359) / Çərşənbə, 12 iyun 2019-cu il


## Azərbaycanda iqtisadi inkişaf sabitliyə xidmət edir



⇨ Bax: səh. 2

LABÜD QAYIDIŞIN STİXİYASI:

## Dövlətin və millətin qurtuluşu naminə...



⇨ Bax: səh. 6

⇨ Bax: səh. 4

## Naxçıvanda Azərbaycan-Türkiyə birgə hərbi təlimləri



⇨ Bax: səh. 5



## TANAP: Yeni layihələrin müjdəsi

⇨ Bax: səh. 14



*Vüqar Bayramov:*

## Ermənistan iqtisadiyyatı xarici investorlar üçün cəlbedici deyil

⇨ Bax: səh. 11



*Sədaqət Vəliyeva:*

## Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin xilası tarixidir


9 | Vətən yolunda şəhid olmaq vətəndaşlığın ali zirvəsidir

9 | Tovuzun Yuxarı Öysüzlü kəndində yeni massiv qazlaşdırılır

16 | Günəşdən özünüzü gözləyin...

## PREZİDENT İLHAM ƏLİYEV VLADİMİR PUTİNİ TƏBRİK EDİB



Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinə təbrik məktubu göndərib.

Təbrikdə deyilir: "Hörmətli Vladimir Vladimiroviç. Dövlət bayramınız - Rusiya Günü münasibətilə Sizi və Sizin şəxsinizdə dost Rusiyanın bütün xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Rusiyanı ənənəvi sıx dostluq, mehriban qonşuluq və əməkdaşlıq münasibətləri bağlayır. Sevindirici haldır ki, xalqlarımızın iradəsini əyani şəkildə ifadə edən bu münasibətlər indi strateji tərəfdaşlıq xarakteri kəsb edir. Ölkələrimizin ən geniş spektrli məsələlər üzrə qarşılıqlı fəaliyyəti xüsusi məmnunluq doğurur.

Əminəm ki, Azərbaycan ilə Rusiya arasında hərtərəfli və çoxplanlı əməkdaşlıq xalqlarımızın və ölkələrimizin mənafeyi, regionda sülh, təhlükəsizlik və sabitlik naminə bundan sonra da durmadan inkişaf edəcək və möhkəmlənəcək.

Hörmətli Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, bütün rusiyalılara sülh və firavanlıq arzu edirəm".

## LAYİHƏ-SMETA SƏNƏDLƏRİNİN HAZIRLANMASINA VƏSAİT AYRILIB

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.63-cü bəndində göstərilmiş vəsaitin azaldılan hissəsinin ayrılması haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Bakı şəhərində gözdən əlilliyi olan şəxslər üçün inşa ediləcək çoxmənzilli binanın layihə-smeta sənədlərinin hazırlanması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.63-cü bəndində göstərilmiş məbləğin 300 min manatı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılsın.

Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

Maliyyə Nazirliyinə bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılır. Sərəncam imzalandığı gündən qüvvəyə minir.

## BİR QRUP SƏHİYYƏ İŞÇİSİ TƏLTİF EDİLİB

Prezident İlham Əliyev Azərbaycan Respublikasının səhiyyə işçilərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Azərbaycanda səhiyyə sahəsində səmərəli fəaliyyətlərinə görə ***Cəfərov Rauf Mehralı oğlu, Əbdülov Sucəddin Cəlil oğlu, Əliyev Əlövsət Həbib oğlu, Həsənov Ədalət Bəybala oğlu, Hüseynov Xəlil Rafiq oğlu, Musayev Vilayət Novruz oğlu, Süleymanova Nəzakət Akif qızı, Şahsuvarov Oruc Müseyib oğlu* "Tərəqqi" medalı** ilə təltif edilib.

Prezident İlham Əliyev Azərbaycan Respublikasının səhiyyə işçilərinə fəxri adların verilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan səhiyyəsinin inkişafında xidmətlərinə görə ***Camalova Təranə Paşa qızı, Dadaşov Ədalət İmamcan oğlu, Eybətova Cəmilə Bəylər qızı, Əhmədov Hüseyn Məcid oğlu, Hacıyev Məcid Mahmud oğlu, Həsənova Nəzakət Cabbar qızı, İbrahimov Elman İsmayıl oğlu, İbrahimova Gülər Arif qızı, İsrafilova Mahirə Şahalı qızı, Məmmədov Azər Bağır oğlu, Nağıyeva Pəri Haxverdi qızı, Salmanov Mehrab Məhəmməd oğluna "Əməkdar həkim", Hüseynova Nərgiz Mirbağır qızı, Məmmədova Arifə Cümayıl qızına "Əməkdar müəllim", Əliyeva Təranə Sabir qızına isə "Əməkdar tibb işçisi"*** fəxri adları verilib.

## TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QAZLAŞDIRILMASINA 5,7 MİLYON MANAT AYRILIB

Prezident İlham Əliyev Azərbaycan Respublikasında təhsil müəssisələrinin qazlaşdırılması haqqında Sərəncam imzalayıb.

Sərəncamda deyilir ki, təhsil müəssisələrinin qazlaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.67-ci bəndində göstərilmiş məbləğin 5,7 milyon manatı Təhsil Nazirliyinə ayrılsın.

Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməli, Maliyyə Nazirliyi göstərilən məbləğdə maliyyələşməni təmin etməlidir.

Sərəncam imzalandığı gündən qüvvəyə minir.

# Azərbaycanda iqtisadi inkişaf sabitliyə xidmət edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tseretelini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanda iqtisadi inkişafın sabitliyə xidmət etdiyi vurğulandı, Bakıda mühüm beynəlxalq tədbirlərin keçirilməsinin təkcə Azərbaycan üçün deyil, ümumilikdə region üçün önəm daşıdığı bildirildi.

Söhbət zamanı Azərbaycan-ATƏT Parlament Assambleyası əlaqələri, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli, əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Daşkənddə professor Hafiz Paşayevin "Bir səfirin manifesti" kitabının təqdimatı keçirilib

**Daşkənddəki Dünya İqtisadiyyatı və Diplomatiya Universitetində Azərbaycan Xarici İşlər nazirinin müavini, ölkəmizin ABŞ-dakı ilk səfiri, ADA Universitetinin rektoru, professor Hafiz Paşayevin "Bir səfirin manifesti" kitabının təqdimatı keçirilib.**



AZƏRTAC xəbər verir ki, Azərbaycanın Özbəkistandakı səfirliyi və bu qurumun nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə keçirilən mərasimi universitetin rektoru, professor Abdujabbor Abduvaxidov açaraq Hafiz Paşayevin həyatı, diplomatik fəaliyyəti haqqında məlumat verib, özbək dilində çap olunan bu kitabın əhəmiyyətindən danışıb.



Rektor "Bir səfirin manifesti" kitabının həm gənc, həm də professional diplomatlar üçün dəyərli dərslik olacağına əminliyini ifadə edib.

Özbəkistan parlamenti Senatı sədrinin birinci müavini Sadık Safoyev Özbəkistanda "Bir səfirin manifesti" kitabının çap edilməsi münasibətilə Hafiz Paşayevi təbrik edib, Amerika Birləşmiş Ştatlarında səfir kimi fəaliyyət göstərdiyi illərdə onunla dostluq əlaqələrindən danışıb.

S.Safoyev vurğulayıb ki, ixtisasca fizik olan Hafiz Paşayev Bakıda dünya standartlarına uyğun ADA Universitetini yaradıb və uğurla rəhbərlik edir. Bu onu göstərir ki, o həm alim, uğurlu diplomat, həm də müəllim keyfiyyətlərinə malikdir. ADA Universitetində dünyanın müxtəlif ölkələrindən gələn gənclər təhsil alır.

Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev Hafiz Paşayevin diplomatik xidməti haqqında söhbət açıb. Deyilib ki, H.Paşayev ABŞ-da səfir işlədiyi dövrdə Azərbaycan həqiqətlərinin yayılması və təbliği sahəsində böyük işlər görüb, Bu gün ABŞ-ın 20 ştatı Xocalı faciəsini soyqırımı kimi tanıyıb və bu işdə H.Paşayevin əməyi danılmazdır. Səfir çıxışında dünyanın 16 ölkəsinin Xocalı faciəsini soyqırımı olaraq tanıması və bu göstəricinin də Azərbaycan diplomatiyasının uğuru olduğunu qeyd edib.

Hafiz Paşayev kitabın çapında dəstəyə görə təşəkkürünü bildirib, əsərin yaranması haqqında məlumat verib. O, ABŞ-da səfir kimi fəaliyyəti, ADA Universitetinin yaradılması və fəaliyyəti haqqında söhbət açıb. Diplomat bildirib ki, universitetdə dörd istiqamət üzrə kadrlar hazırlanır. Vurğulanıb ki, hazırda universitetdə 2500 tələbə təhsil alır, məzunların 80 faizi işlə təmin olunur. H.Paşayev deyib: "Biz nə ediriksə ölkəmizin sabahı üçün edirik, Azərbaycanın gələcəyi üçün edirik".

Sonra Azərbaycan Mədəniyyət Mərkəzi Daşkənddə Azərbaycanın tarixi, ədəbiyyatı, mədəniyyətinə dair son 6 ildə özbək dilində çap etdirdiyi 60 adda kitabdan ibarət kolleksiyanı universitetin kitabxanasına bağışlayıb.

Təqdimatın sonunda Hafiz Paşayev "Bir səfirin manifesti" kitabını avtoqrafla tələbə və müəllimlərə hədiyyə edib.

# Şanlı tarix: müstəqillik və inkişaf yolunda inamlı addımlar



Azərbaycan xalqı Şərqdə ilk demokratik dövlət qurması ilə tam fəxr edə bilər. Bu, həm də müasir mərhələdə müstəqil dövlətçiliyin uğurla inkişaf etdirilməsi işığında əhəmiyyətli görünür. 28 May - Respublika Günü münasibətilə rəsmi qəbulda çıxışı zamanı Prezident İlham Əliyev bu kimi məqamları dolğun və konkret faktlarla ifadə edib. Dövlət başçısı Azərbaycanın dövlət kimi müstəqilliyinin və cəmiyyət kimi demokratikliyinin, sülhsevərliyinin vacib aspektlərini irəli sürüb. Dövlət quruculuğunun böyük uğurla aparıldığı indiki mərhələdə həmin fikirlərin əhəmiyyətini daha aydın dərk etmək mümkündür. Bakıda keçirilən XXVI Beynəlxalq "Xəzər Neft və Qaz-2019" sərgi və konfransının əhəmiyyətini də həmin kontekstdə anlamaq olar. Bu çərçivədə ölkə rəhbərinin nitqinin bir sıra aspektləri üzərində geniş dayanmağa böyük ehtiyac vardır.

AXC və müasirlik: müstəqil Azərbaycanın uğurları işığında

1918-ci il mayın 28-i Azərbaycan tarixinin ən parlaq səhifələrindən biridir. XX əsrin əvvəllərində müsəlman aləmində ilk demokratik respublika Azərbaycanda yaradıldı. Həmin dövrdə Avropanın özündə müstəqil və demokratik dövlət qurmaq uğrunda mübarizə səngimirdi. Osmanlı və Rusiya imperiyaları çox çətin dövrlərini yaşayırdılar. Qafqaza qonşu regionlarda mürəkkəb və qeyri-müəyyən geosiyasi-hərbi proseslər cərəyan edirdi. Belə bir qarışıq dövrdə Azərbaycan Xalq Cümhuriyyəti yaratdığını elan etdi. Bu möhtəşəm hadisənin siyasi, ideoloji, mənəvi, mədəni, iqtisadi və hərbi aspektləri haqlı olaraq tədqiq olunur və bu proses daha da dərinləşməlidir.

Prezident İlham Əliyev məhz bu bağlılıqda Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda əhəmiyyətli fikirlər ifadə edib. Dövlət başçısı vurğulayıb: "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Çünki ilk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdı. Biz haqlı olaraq fəxr edirik ki, məhz Azərbaycan xalqı müsəlman aləmində ilk demokratik respublikanın yaradılmasının müəllifi olmuşdur. Bu, onu göstərir ki, xalqımız çox mütərəqqi xalqdır. Onu göstərir ki, Azərbaycanın görkəmli ziyalıları ölkəmizin inkişafı üçün çox böyük işlər görmüşlər. Xalq Cümhuriyyətinin ömrü uzun olmasa da, 23 ay ərzində çox böyük işlər görə bilmişdir".

Dövlət başçısı konkret faktlarla bu hadisənin tarixiliyini və möhtəşəmliyini ifadə edib. Onların sırasında aşağıdakı üç faktorun seçilməsi son dərəcə önəmlidir: dövlət bayrağının yaradılması, Azərbaycan vətəndaşlığının təsis edilməsi və Milli Ordunun formalaşdırılması! Bu faktorlar həm dövlətçilik, müstəqillik və demokratikliyin rəmzləri, həm də konkret həyata keçirilmiş əməli işlərdir. Dövlət bayrağı olmayan xalqın müstəqilliyi olmaz. Bayraq ideyadır, amaldır, milləti millət edən böyük mənadır. Vətəndaşlıq Azərbaycanın XX əsrin əvvəllərindən demokratik yol seçdiyinin göstəricisidir. Vətəndaşlıq vətəndaş cəmiyyəti quruculuğu istiqamətində atılmış ilk mühüm addımdır. AXC-nin ömrü qısa olsa da, məhz bu tarixi addım öz inkişafını XX əsrdə ikinci dəfə müstəqilliyinə qovuşan Azərbaycanda dövlət quruculuğunun mərkəzi vəzifələrindən biri oldu. İndi müstəqil Azərbaycan vətəndaş cəmiyyətinin qurulması yolunda davamlı addımlar atır. Nəhayət, Milli Ordu təhlükəsizliyin təmini və özünümüdafiə üçün əsas arqumentdir. Həmin dövrdə Milli Ordu Qafqaz İslam Ordusu ilə birgə ilk tarixi zəfərini qazandı - Bakını işğalçılardan azad etdi! Bununla bütün dünyaya sübut edildi ki, Azərbaycan ordusu dövləti, xalqı, mədəniyyəti, milliliyi qorumaq iqtidarında olan güclü strukturdur. Bu ordu hələ bizlərə çox-çox tarixi zəfərlər gətirəcək. Qarabağdan başlayaraq!

Prezident bu kimi məqamları lakonik və dolğun məzmunda ifadə etməklə dünyaya və cəmiyyətə tarixi mesajlar verib. İlham Əliyev göstərir ki, Azərbaycan rəhbərliyi müstəqil dövlətçiliyin tarixini çox əziz tutur, ondan ilhamlanır və bu yolu inamla davam etdirir. Ölkə rəhbəri bu yolda vacib hesab edilən başqa məqamları da ifadə edib. İlham Əliyev nitqində vurğulayıb: "Bakı Dövlət Universiteti yaradılmışdır. Bu, onu göstərir ki, təhsilə çox böyük diqqət yetirilirdi. 200-dən çox qanun qəbul olunmuşdur. Onların arasında qadınlara səsvermə hüququ verən qanun qəbul edilmişdir. Yəni, bütün bu və digər addımlar onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları ölkəmiz, xalqımız üçün çox böyük işlər görmüşlər".

Bu faktlar onu ifadə edir ki, Azərbaycanın müstəqilliyinin təməlində mədəniyyət, təhsil və hüquq əsas yeri tutur. Xalq Cümhuriyyəti məhz bu faktorlar üzərində bərqərar oldu. İndi də müstəqil dövlət quruculuğunda həmin faktorlar aparıcı mövqedədir. Yəni Azərbaycan sivil, mütərəqqi və mədəniyyətə üstünlük verən dövlət və cəmiyyətdir! Bütün bunları nəzərə alan Azərbaycan rəhbərliyi Cümhuriyyət qurucularının xatirəsini əziz tutur. Bakı şəhərinin mərkəzində Cümhuriyyətin şərəfinə abidə ucaldılıb və keçən il "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilib. Bütövlükdə ilk demokratik respublikanın qurucularının xatirəsi qəlblərdə əbədi yaşayır.

XXI əsrin çağırışları: varislikdən yeni zirvələrə doğru!

Bunlarla yanaşı, Azərbaycan yerində dayanmır, ancaq tarixi ilə öyünməklə kifayətlənmir. Ulu öndər Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə dəvət olunduqdan sonra Xalq Cümhuriyyətinin qurucularının niyyətlərini böyük ustalıq və qətiyyətlə reallaşdırmağa başladı. Heydər Əliyev faktiki olaraq yeni müstəqil Azərbaycan yaratdı.

Ümummilli lider Cümhuriyyəti qoruyub saxlamağın müstəqilliyi əldə etməkdən çox çətin olduğunu gözəl bilirdi. Bu səbəbdən XX əsrin əvvəllərində olduğu kimi, səhvlərə yol verməK olmazdı. Həm də XX əsrin 90-cı illərində qlobal geosiyasi mənzərə daha qarışıq və risklərlə dolu idi. Lakin Heydər Əliyevin zəkası, siyasi lider kimi qüdrəti bütün çətinlikləri aşmağa imkan verdi. Nəticədə, Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi hazırda inamla inkişaf edir.

İlham Əliyev bununla bağlı çox gözəl ifadə edib: "1993-cü il müasir tariximizdə dönüş nöqtəsi idi. Məhz 1993-cü ildən sonra Azərbaycan inkişaf yoluna qədəm qoydu, Azərbaycanda sabitlik təmin edildi və ölkə inamla irəliyə getməyə başladı. Ulu öndər Heydər Əliyevin xalq, dövlət qarşısında misilsiz xidmətləri vardır. Onu da bildirməliyəm ki, 1993-cü ilə qədər müstəqilliyimiz formal xarakter daşıyırdı, ölkəmiz müstəqil siyasət apara bilmirdi. Heydər Əliyevin xalq qarşısında xidmətlərindən biri də o idi ki, Azərbaycan əsl müstəqillik yoluna qədəm qoydu. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə çox ciddi islahatlar aparılmağa başlanmışdır... Bir sözlə, məhz o illərdə Azərbaycanın strateji inkişaf istiqamətləri müəyyən edildi".

Təcrübə göstərdi ki, Heydər Əliyevin bütün sahələri əhatə edən inkişaf strategiyası son dərəcə səmərəlidir. Bunu mədəniyyətdə, təhsildə, xarici siyasətdə, enerji layihələrinin həyata keçirilməsində, ordu quruculuğunda aydın görmək mümkündür. Təsadüfi deyil ki, Azərbaycan Cənubi Qafqazın lideridir. İndi dünyanın aparıcı dövlətlərinin liderləri Azərbaycanın daha geniş geosiyasi məkanda lider rolunu oynamağa layiq olduğundan bəhs edirlər. Bu məqam Bakıda keçirilən XXVI Beynəlxalq "Xəzər Neft və Qaz-2019" sərgi və konfransının gedişində də özünü tam təsdiq etdi. Amerika Prezidenti həmin hadisə ilə bağlı Azərbaycan rəhbərinə ünvanladığı məktubda konkret vurğulayıb ki, Azərbaycan yeni liderliyə tam layiqdir.

Sərgi və konfransın açılışında nitq söyləyən Prezident İlham Əliyev də ölkə rəhbərliyinin apardığı enerji siyasətinin bütün əsas məqamlarını dolğun ifadə edib. Azərbaycanın bu sahədə əldə etdiyi nailiyyətləri faktlarla sübut edib.

Prezident İlham Əliyev nitqində ayrıca vurğulayıb ki, bu uğurlar Azərbaycanın səmərəli beynəlxalq əməkdaşlıq formatları çərçivəsində fəaliyyət göstərməsi ilə sıx bağlıdır. "...Çünki əgər o olmasa, o layihələri icra etmək mümkün olmaz. Neft-qaz kəmərləri, investisiya qoyuluşu, beynəlxalq maliyyə qurumlarının iştirakı və əlbəttə ki, birgə səylərimiz nəticəsində biz buna nail ola bilmişik. Hesab edirəm ki, Azərbaycan bu məsələ ilə bağlı istədiyinə tam nail ola bildi". Bunların fonunda, əlbəttə, enerji təhlükəsizliyi məsələlərinin böyük əhəmiyyət daşıdığını dərk etmək çətin deyil.

"Enerji təhlükəsizliyi məsələləri ölkələrin milli təhlükəsizliyi məsələləridir" tezisini irəli sürən İlham Əliyev Azərbaycanın bu istiqamətdə də ardıcıl və uğurlu siyasət apardığını bəyan edib. Fikirlərini inkişaf etdirən Prezident ifadə edib: "Bugünkü Azərbaycan reallıqları onu göstərir ki, biz düzgün yoldayıq. 1994-cü ildə başlanmış və uğurla davam etdirilən neft-qaz siyasətimiz bu gün Azərbaycanın reallıqlarını şərtləndirən əsas amillərdən biridir".

Əlbəttə, bütün bunlar çox sevindiricidir və ölkə rəhbərinin söylədiyi bir fikrin reallığı tam əks etdirdiyini bir daha təsdiq edir. Prezident İlham Əliyev vurğulayıb: "Müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyata təmin etdik, həyata keçirdik. Əminəm ki, müstəqillik yolunda bizim inkişafımız davamlı olacaq, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaq!".

Bəli, tam əminik ki, müstəqil Azərbaycanın taleyi bu fikirlərdə dəqiq ifadə edilib!

**Newtimes.az**

# Vaşinqtonda ABŞ-ın Azərbaycan icmasının nümayəndələri ilə görüş olub

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ABŞ-a səfəri çərçivəsində paytaxt Vaşinqton və ətraf ştatlarda yaşayan azərbaycanlı icma nümayəndələri ilə görüşüb.

ABŞ-Azərbaycan Ticarət Palatasında təşkil olunan naharda icma fəalları, eləcə də azərbaycanlı elm və biznes nümayəndələri iştirak ediblər.

Palatanın icraçı direktoru Natiq Baxışov tədbiri açaraq qonağı və icma nümayəndələrini salamlayıb, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevə təşkilatın dəvətini qəbul etdiyinə görə minnətdarlığını bildirib.

Hikmət Hacıyev azərbaycanlı icma nümayəndələri ilə görüşdən, eləcə də ABŞ-da yaşayan soydaşlarımızın Azərbaycanla sıx bağlılıqlarının olduğunu görməkdən məmnunluğunu ifadə edib. Şöbə müdiri bunun Vaşinqtonda və digər ştatlarda fəaliyyət göstərən Azərbaycan məktəbləri və təşkilatlarının fəaliyyəti, eləcə də icmanın aktiv üzvlərinin sosial media üzərində fəaliyyətləri ilə daha qabarıq görünməsinin xüsusi qürurverici hal olduğunu deyib.



Səfir Elin Süleymanov iki ölkə arasında münasibətlərin inkişafında azərbaycanlı icmanın rolundan bəhs edib. Azərbaycanın bu və ya digər sahədə tanınmasında, Azərbaycan həqiqətlərinin Amerika ictimaiyyətinə çatdırılmasında ABŞ-da yaşayan soydaşlarımızın əhəmiyyətli rolunun olduğunu bildirib.

Görüşdə icma nümayəndələrinin çoxsaylı suallarıcavablandırılıb, irəli sürülmüş təkliflər üzrə müzakirələr aparılıb.

# Naxçıvanda Azərbaycan-Türkiyə birgə hərbi təlimləri

**Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən iyunun 7-dən etibarən Naxçıvanda iki ölkənin Silahlı Qüvvələrinin "Sarsılmaz qardaşlıq-2019" birgə döyüş atışlı taktiki təlimləri başlayıb.**

İyunun 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar və Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov birgə döyüş atışlı taktiki təlimi izləyiblər.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev təlimə hazırlıq barədə raport verib.

Naxçıvan Qarnizonu Qoşunlarının istifadəsində olan silah, texnika və döyüş maşınları ilə tanışlıqdan sonra təlimə start verilib.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev təlimin başa çatması barədə raport verdikdən sonra şəxsi heyətlə görüş olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov əsgər və zabitləri salamlayıb, onları və tədbir iştirakçılarını Azərbaycan və Türkiyə silahlı qüvvələrinin birgə təlimlərinin uğurla başa çatması münasibətilə təbrik edərək deyib: Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, "Müstəqil Azərbaycan dövlətinin ən böyük dayağı, onun sütunu Azərbaycan Ordusudur". İşğalçı ölkə ilə sərhəddə yerləşməsi və blokada şəraitində yaşaması Naxçıvan Muxtar Respublikasında müdafiə təhlükəsizliyini əsas məsələlər sırasına çıxarmışdır. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır. Belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır".

Ali Məclisin Sədri deyib: Dövlət başçısı Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə xüsusi diqqət yetirmiş, müasir silah və texnika ilə təminat gücləndirilmiş, bunların nəticəsi olaraq Əlahiddə Ümumqoşun Ordu yaradılmışdır. Bu gün muxtar respublikadakı ordu, hissə və birləşmələr güclü maddi-texniki təminata, müasir silahlara və peşəkar şəxsi heyətə malikdir. Naxçıvanda ordu quruculuğu sahəsində görülən işlərdə Türkiyə Silahlı Qüvvələrinin dəstəyi də qeyd olunmalıdır. Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında hərbi sahədəki əməkdaşlığın səviyyəsi məmnunluq doğurur. Naxçıvanda Azərbaycan-Türkiyə birgə hərbi təlimlərinin keçirilməsi də bu əməkdaşlığın davamı, eyni zamanda ordularımız arasındakı birliyin göstəricisidir.

Ali Məclisin Sədri deyib: Ordu quruculuğu tədbirləri sırasında hərbi təlimlərin əhəmiyyəti böyükdür. Çünki təlimlər əsgər və zabitlərdə hərbi vərdişləri formalaşdırır, onların döyüş hazırlığını artırır. Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürk deyirdi ki, "Hər hansı bir ordunun dəyəri onun əsgər və komandan heyətinin dəyəri ilə ölçülür". Azərbaycan-Türkiyə birgə hərbi təlimində qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi bir daha əminlik yaratdı ki, təlimə cəlb olunmuş şəxsi heyətlərdə yüksək döyüş hazırlığı vardır.



"Ordunun gücünü və döyüş qabiliyyətini yalnız maddi-texniki baza və silah təminatı deyil, həm də şəxsi heyətin vətənpərvərliyi və birliyi artırır. O ordu güclüdür ki, onun əsgər və zabitlərində vətənpərvərlik və birlik olsun. Keçirilən təlimdən çıxan nəticə də ondan ibarətdir ki, bir millətin, iki dövlətin silahlı qüvvələrində yüksək vətənpərvərlik və birlik vardır", - deyən Ali Məclisin Sədri hərbi təlimin uğurla başa çatması münasibətilə şəxsi heyətləri təbrik edib, hərbi təlimin hazırlanmasında əməyi olanlara təşəkkürünü bildirib.



Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar iki qardaş ölkə silahlı qüvvələrinin birgə fəaliyyəti olan "Sarsılmaz qardaşlıq-2019" təlimləri münasibətilə şəxsi heyətləri təbrik edərək deyib: Regional təhdidlərin artdığı bir dövrdə ölkələrimizin və xalqlarımızın təhlükəsizliyini təmin etməyin yolu güclü və mübariz orduya sahib olmaqdan keçir. Güclü ordu üçünsə müasir silah və texnika, həmçinin peşəkar hərbçilər lazımdır. Peşəkar hərbçilərin yetişdirilməsinin ən optimal yolu təlimlərin keçirilməsidir. Təlimlərdə əsgər və zabitlərin ərazi və hava şərtləri ilə tanış olması döyüşə hazırlıq baxımından çox əhəmiyyətlidir. Çünki şəxsi heyət döyüş hərəkətlərini təlimlərdə öyrənir. Xüsusilə müştərək və birləşmiş təlimlər bir-birimizi tanımamıza, çiyin-çiyinə mübarizə aparmağımıza böyük dəstək verir. Dostluq və birgə əməkdaşlıq çərçivəsində icra etdiyimiz "Sarsılmaz qardaşlıq-2019" təliminin layiqli şəkildə məqsədinə çatdığını və böyük müvəffəqiyyətlə yerinə yetirildiyinin şahidi olduq. İki dövlətin bir millət, bir ordu olduğunda nələr edə biləcəyinə bu təlim bir nümunədir. Mustafa Kamal Atatürkün də dediyi kimi: "Azərbaycanın sevinci bizim sevincimiz, Azərbaycanın kədəri bizim kədərimizdir". Qardaş ölkə Azərbaycan və Türkiyə hər cür təhdid və təhlükəyə qarşı kədərdə və sevincdə bərabərdir.











Hulusi Akar təlimlərin yüksək səviyyədə başa çatması münasibətilə Türkiyə Silahlı Qüvvələrinin adından təbriklərini çatdırıb.

Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov çıxış edərək deyib: Türkiyə Silahlı Qüvvələri dünyanın ən güclü ordularındandır. Qardaş ölkə ilə olan milli bağlarımız ordu quruculuğu sahəsində əməkdaşlıq üçün geniş imkanlar açır. Türkiyə Silahlı Qüvvələrinin təcrübəsindən bəhrələnmək mühüm əhəmiyyət daşıyır. Birgə təlimlər bir daha bütün dünyaya nümayiş etdirdi ki, silahlı qüvvələrimiz hər bir vəzifəni birgə icra etməyə hazırdır və qadirdir. Naxçıvanda keçirilən təlimdə Türkiyə Respublikasının Milli Müdafiə nazirinin iştirakı onun əhəmiyyətini daha da artırdı.

Zakir Həsənov təlimin uğurla başa çatması münasibətilə şəxsi heyətə təbriklərini çatdırıb.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev təlimə hazırlıqla bağlı görülən işləri diqqətə çatdırıb, hazırlanmış ssenariyə uyğun Türkiyə Respublikası Silahlı Qüvvələrinin təlimə cəlb olunan heyəti ilə Naxçıvan Qarnizonu Qoşunlarının şəxsi heyəti arasında bölmələrin birgə idarə edilməsində vahid prosedurların tətbiqinə nail olunduğunu, hədəflərin 85, maketlərin 90 faizindən çoxunun məhv edildiyini bildirib.

Sonra xatirə şəkli çəkdirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar və Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov təlimdə fərqlənən zabit, gizir və əsgərləri qiymətli hədiyyələrlə mükafatlandırıblar. Zabit, gizir və əsgərlər şəxsi heyət arasındakı birlik və bərabərliyin ifadəsi olan "Hamı bir nəfər, bir nəfər hamı üçün" şüarını səsləndiriblər.

# TANAP: Yeni layihələrin müjdəsi

12 iyun 2018-ci il Azərbaycanın enerji sektorunda qazandığı uğurlar sırasına yeni bir əlavəni etdi. Belə ki, həmin tarixdə Türkiyənin Əskişəhər şəhərində çoxtərəfli əməkdaşlığın başlanğıcı kimi dəyərləndirilən Cənub Qaz Dəhlizinin əsas tərkib hissələrindən biri olan TANAP-ın istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirildi. “Bu gün TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda götürür. TANAP kimi nəhəng layihənin həyata keçirilməsi Türkiyə-Azərbaycan liderlərinin birgə güclü siyasi iradəsi nəticəsində mümkün olmuşdur” söyləyən dövlətimizin başçısı İlham Əliyev iki dost, qardaş ölkə olan Türkiyə və Azərbaycanın dərin tarixi köklərə malik olduğunu önə çəkərək bir daha bildirmişdir ki, bu möhkəm təməllər üzərində qurulmuş, qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimiz bu gün müttəfiqliyin və strateji tərəfdaşlığın ən yüksək səviyyəsinə yüksəlmişdir. Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı sayəsində həyata keçirilən layihələr regionun inkişafında, Avropa və Asiya arasında mühüm enerji, kommunikasiya dəhlizinin yaradılmasında böyük rol oynayır. Birgə gerçəkləşdirilən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, həmçinin TANAP uğurlu əməkdaşlığımızın parlaq nümunələridir. Ölkə Prezidenti bu əminliyi də ifadə edir ki, Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı bundan sonra da bütün birgə təşəbbüslərimizin gerçəkləşməsində mühüm rol oynayaraq, ölkələrimizin inkişafına, xalqlarımızın rifahına töhfələr verəcək.



“Bizim birliyimizdən çox şey asılıdır” söyləyən cənab İlham Əliyev Türkiyə-Azərbaycan dostluğunun sarsılmazlığını faktlar əsasında diqqətə çatdırır. Azərbaycanın müstəqilliyini ilk tanıyan qardaş Türkiyə təmsil olunduğu bütün beynəlxalq təşkilatlarda ölkəmizi dəstəkləməklə haqq işimizin müdafiəsi üçün Azərbaycan qədər əzmkarlıq göstərir. Rəsmi dövlət nümayəndələrinin, eyni zamanda güclü diasporanın Azərbaycanın ərazi bütövlüyünün qorunması istiqamətində göstərdiyi səy qardaş dəstəyi olmaqla türk dünyasının birliyi və həmrəyliyi yolunda atılan ciddi siyasi addımlar hesab olunur. “Həm siyasi, həm də iqtisadi, mədəni, hərbi- bütün sahələrdə bizim aramızda ən yüksək işbirliyi, anlaşma var. Gərək elə edək ki, maraqlarımız tam şəkildə təmin olunsun, bizi narahat edən problemlər aradan qaldırılsın, ədalət zəfər çalsın, xalqlarımız rahat yaşasın” söyləyən Prezident İlham Əliyevin bildirdiyi kimi, türk dünyası böyük qüvvədir. Bu böyüklük öz möhkəmliyini və yenilməzliyini xalqların birliyi ilə sübut edir. Türkiyə-Ermənistan sərhədlərinin açılmasını nəzərdə tutan protokolun imzalanması və eyni zamanda ondan sonrakı mərhələdə baş verən hadisələr bütün dünya xalqlarına bəlli etdi ki, Azərbaycan-Türkiyə dostluğu, eyni kökdən qaynaqlanan xalqların əzmi yenilməzdir. “Ermənistan tərəfindən işğal olunan Azərbaycan torpaqları azad olunmayınca sərhədlərin açılması mümkün deyil” kimi qərarında israrlı olan rəsmi Ankaranın bu gün də eyni mövqe nümayiş etdirməsi bu qardaşlığın digər xalqlara xas olan əlaqələrindən fərqli olduğunu bir daha bəyan etdi. Dağlıq Qarabağ probleminin həllində bilavasitə Azərbaycanın yanında olmaqla ən yüksək tribunalardan problemin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinin vacibliyini bəyan edən rəsmi Ankara münaqişənin həllində vasitəçiliyi həyata keçirməyə hazır olduğunu da bəyan edir. Bir əsas məqamı da qeyd edək ki, Azərbaycan 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçiləndə cənab İlham Əliyev bu mühüm hadisəni Azərbaycan və Türkiyənin müştərək yeri kimi dəyərləndirmişdir. İki dost, qardaş ölkənin daim vahid mövqedən çıxış etməsi dünyaya nümunə kimi qeyd edilir.

TANAP-ın istifadəyə verilməsi səylərin birləşdirilməsinin qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olmağa əsas yaratdığını bir daha nümayiş etdirdi. Layihənin icrası müstəqilliyimizin daha bir mühüm hadisəsi kimi tarixə düşdü. Azərbaycanın və Türkiyənin möhkəm işbirliyi, qardaşlığa və dostluğa söykənən fəaliyyətləri bu strateji layihənin uğurla reallaşmasında əhəmiyyətli rol oynadı. Ölkəmizin iqtisadi qüdrətinin, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasındakı rolunu bir daha təsdiqləyən TANAP bununla da Azərbaycanın dünyanın siyasi və iqtisadi həyatındakı yerini və mövqeyini nümayiş etdirdi. “TANAP ortaq baxışımızın ən son bəhrəsidir” söyləyən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan eyni zamanda bildirmişdir ki, TANAP həmçinin qarşıdakı illərdə həyata keçirəcəyimiz yeni layihələrin də müjdəsidir.

Ölkə Prezidenti ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurlu icrasına davamlı töhfələr verən, daim uğurun izlədiyi SOCAR-ın həyata keçirdiyi investisiya layihələrindən də TANAP-ın istifadəyə verilməsini, istərsə də “Star”ın açılışını böyük səylərin, investisiyaların nəticəsi kimi diqqətə çatdırır. SOCAR-ın müxtəlif ölkələrdə, o cümlədən qardaş Türkiyədə reallaşdırdığı investisiya layihələri onun beynəlxalq nüfuzunu daha da möhkəmləndirir, beynəlxalq qurumlar sırasında addımlamağını şərtləndirir.

Qısa təhlil Azərbaycan-Türkiyə münasibətlərinin bu gününə işıq salmaqla yanaşı, Azərbaycanın dünyanın enerji təhlükəsizliyinin təminatında artan rolunu nümayiş etdirir. Dövlətimizin başçısı İlham Əliyev “Cənub Qaz Dəhlizinin rəsmi açılışı onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır” söyləməklə bir daha qarşıdakı illərin aydın mənzərəsini yaradır. TANAP-ın istifadəyə verilməsindən ötən bir ildə Azərbaycanın enerji sektorunda qazandığı uğurlara, həmçinin regional və beynəlxalq əməkdaşlığa verdiyi töhfələrin miqyasına diqqət yetirmək kifayətdir.

Göründüyü kimi, Xəzər hövzəsinin zəngin enerji potensialına malik ölkəsi kimi tanınan və bölgənin lider dövləti statusunu qoruyan Azərbaycan dünya dövlətləri üçün strateji tərəfdaş kimi qazandığı etimadı yeni layihələrin reallaşmasında göstərdiyi qətiyyəti ilə təsdiqləyir. “Əgər biz təşəbbüs göstərib 2012-ci ildə Türkiyə ilə birlikdə TANAP layihəsinə imza atmasaydıq, bu gün Cənub Qaz Dəhlizi haqqında kimsə danışa bilərdimi? Bu gün Avropanın enerji təhlükəsizliyini kimsə bizsiz təmin edə bilərdimi? Bunları biz edirik. Nəyə görə? Çünki bu, bizim xalqımıza lazımdır. Bu, bizim dövlətimizi, ölkəmizi gücləndirir və bizim maraqlarımıza xidmət edir” söyləyən cənab İlham Əliyev bildirir ki, dörd layihədən - “Şahdəniz”, Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP-dan ibarət Cənub Qaz Dəhlizi ölkəmizə əlavə siyasi, iqtisadi, maliyyə imkanları yaradacaq, zəngin qaz resurslarımızın dünya bazarlarına bundan sonra onilliklər ərzində ixrac edilməsini təmin edəcək, valyuta axını artacaq, dayanıqlı inkişafımız daha da möhkəmlənəcək.

**Yeganə Əliyeva,**
***“İki sahil”***

# Ali Məclisin Sədri Türkiyənin Milli Müdafiə naziri ilə görüşüb





**Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimlərində iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına səfərə gəlib.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyunun 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar ilə görüşüb.

Ali Məclisin Sədri Naxçıvana səfərlə bağlı qəbul etdiyi qərara görə Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akara hörmət və ehtiramını bildirib, bu tarixi səfəri muxtar respublikanın həyatında mühüm hadisə kimi dəyərləndirərək deyib: Azərbaycan-Türkiyə əlaqələrinin əsası xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərliyi dövründə qoyulmuşdur. 1993-cü ildən isə münasibətlərimiz bir millətin, iki dövləti səviyyəsinə yüksəlmiş, ötən dövrdə ölkə Prezidentlərinin iradəsinə uyğun olaraq strateji tərəfdaşlığımız daha da möhkəmlənmişdir.

Ali Məclisin Sədri deyib: Ölkələrimiz arasındakı əlaqələrin inkişafında Naxçıvan Muxtar Respublikasının mühüm yeri vardır. Xüsusilə muxtar respublika ilə qardaş ölkə arasındakı hərbi əməkdaşlıq məmnunluq doğurur. 1997-ci ildən bu günə qədər Naxçıvan Muxtar Respublikasında 600-ə yaxın Türkiyə hərbçisi xidmət keçib. Eyni zamanda, Heydər Əliyev adına Hərbi Liseyi bitirən 80-ə yaxın kursant Türkiyənin ali hərbi məktəblərində təhsillərini davam etdirib. Türkiyə Silahlı Qüvvələri Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlərdə dəstəyini əsirgəməmiş, muxtar respublikadakı ordu, birləşmə və hissələrin ərzaq, geyim, əşya, texnika, tibbi avadanlıqlar və dərman vasitələri ilə təminatında təmənnasız köməklik göstərmişdir.

Ali Məclisin Sədri göstərilən dəstəyə görə Türkiyə dövlətinə və Türkiyənin Milli Müdafiə nazirinin şəxsində Türkiyə Silahlı Qüvvələrinə minnətdarlıq edib.

Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar Naxçıvana səfərini və göstərilən qonaqpərvərliyi yüksək dəyərləndirərək deyib: Naxçıvan qədim tarixi və müasir inkişafı ilə tamamilə fərqli bir məkandır. Burada olmaqdan böyük məmnunluq duyur və özümüzü doğma vətənimizdəki kimi hiss edirik. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin də dediyi kimi, Naxçıvanda “Bir millət, iki dövlət” olduğumuzun bir daha şahidi olduq.

Ali Məclisin Sədri Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlıq edib, onun da salamlarını Türkiyə Respublikasının Prezidentinə çatdırmağı xahiş edib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# LABÜD QAYIDIŞIN STİXİYASI:

# Dövlətin və millətin qurtuluşu naminə...

Yalnız şəxsi merkantil niyyətlərdən uzaq və məişət təfəkkürünün fövqündə duran şəxsiyyətlər tarix yazmağa, böyük nailiyyətlərə imza atmağa qadir olurlar. Bu, insanın öz yaradıcı potensialını hansı sahəyə yönəltməsindən asılı olmayaraq demək olar ki, bütün fəaliyyət sferalarında eyni şəkildə işləyən mexanizmdir. Əslində tarix yazmaq bilindiyi və göründüyü qədər asan iş deyil. Çünki özündən sonra nəsə qoyub getmək hələ tarixdə qalmaq, iz buraxmaq deyil. Əlahəzrət tarixin böyük mənada sevimlisi olmaq da hər adamın işi deyil . Bu, çox az insana nəsib olan xoşbəxtlikdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tarixin sevimlisinə çevrilən nadir şəxsiyyətlərdəndir. Çünki bütün həyatı və fəaliyyəti boyu öz bitməz-tükənməz enerjisi ilə tarix yazan Heydər Əliyevin taleyinə çox böyük missiyanı gerçəkləşdirməkzamanın gərgin təbəddülatları fonunda Azərbaycan dövlətçiliyini qorumaq və xalqı qırğından qurtarmaq yazılmışdı. Tale həmişə alnımıza yazılan deyil, bəzən azacıq ümid olduğunda belə ondan yapışıb böyük işlər görməyi bacarmaq məharətidir. Ümummilli Lider belə bir taleyin sahibi idi.

Heydər Əliyev xalqımızın ən ağır günündə qayıdışı ilə yeni bir epoxanın başlanğıcını qoydu. Həmin vaxt çoxsaylı qəhrəman şəhid övladlarımızın qanı bahasına sovet rejiminin qandallarından yeni qurtaran Azərbaycan daxili və xarici bədniyyətli qüvvələrin arasında sözün əsl mənasında ölüm-qalım savaşı verərkən onu bəlalardan qurtarmağı yalnız Heydər Əliyev kimi fenomen bacara bilərdi. Tarix də təsdiqləyir ki, müəyyən zaman kəsiyində xilaskar şəxsiyyət amili labüddür. Heydər Əliyevin xilaskarlıq missiyasının miqyası ölçüyəgəlməz idi. Çünki həm dövləti parçalanmaqdan qurtarmaq, həm də xalqı qırğından qorumaq ancaq fenomenal siyasi liderin labüd qayıdış stixiyası ilə möhtəşəm həyata keçirilə bilərdi.

Ulu Öndəri yaxından tanıyanlar, bu tarixi şəxsiyyətlə canlı ünsiyyət qurmaq və çalışmaq şərəfinə nail olanlar Onun xarakterinə, xarizmasına bəslədikləri ehtiramı, sevgini dərin heyranlıq hissi ilə dilə gətirirlər.

### Suveren dövlətin simvolu, xarizmatik siyasət dahisi, cəsur insan və ən böyük vətəndaş: HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev bir neçə il öncə Ulu Öndər haqqında xatirələrini və düşüncələrini yazarkən Heydər Əliyevi "böyük missiyanı gerçəkləşdirən siyasi düha" kimi səciyyələndirib: "XX əsr tarixində, dünya siyasətində etiraf edilən fenomen şəxsiyyət Heydər Əliyevin yaratdığı milli dövlətçilik tarixin bizə bəxş etdiyi milli sərvətdir və onun dəyərini dərk etməliyik".

Akademik istər Azərbaycan tarixində, istərsə də xalqın yaddaşında Heydər Əliyevin müstəqil və suveren dövlətin simvolu, xarizmatik siyasət dahisi, cəsur insan və ən böyük vətəndaş kimi qaldığını və qalacağını əminliklə qeyd edərək onu Azərbaycanın ən yeni tarixində bütöv bir epoxanı özündə təcəssüm etdirən, müstəqil dövlətin siyasi, iqtisadi, hüquqi, sosial-mədəni, elmi əsaslarını yaradan, onların ardıcıl inkişafını təmin edən siyasi kursun və milli inkişaf strategiyasının müəllifi adlandırmışdı: "Bu gün biz azərbaycanlıların ölkəmiz haqda danışanda fəxr edə biləcəyi, qürurla öyünəcəyi çox uğurları var. Onların istisna olmadan hamısı Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqil Azərbaycanda elə bir sahə yoxdur ki, onun inkişafında Heydər Əliyevin zəhməti olmasın".

Akademik Ramiz Mehdiyev vurğulayıb ki, 90-cı illərin çətin anlarında ümummilli lider Heydər Əliyev Azərbaycanı böyük bəlalardan, dağılmaqdan xilas etdi: "O, Azərbaycanın müstəqilliyinin reallaşmasında və möhkəmlənməsində, beynəlxalq nüfuzunun artmasında, iqtisadiyyatın dirçəlməsində əsas aparıcı tarixi şəxsiyyət idi. Məhz müstəqil Azərbaycan dövləti üçün qürur hissi, onun hadisələrlə zəngin tarixi üçün qürur hissi, Azərbaycan millətinin dünya tarixinə töhfə verməyə hazır olması Heydər Əliyevi bu sözləri söyləməyə ruhlandırmışdır: "Mən fəxr edirəm ki, mən azərbaycanlıyam". Çox illər keçəcək, lakin çiçəklənən Azərbaycanın vətəndaşları dövlət müdrikliyi və sarsılmaz mətinliyi sayəsində Azərbaycanın gələcəyini təmin etmiş bu dahi insanı unutmayacaqlar. Əsası Heydər Əliyevin yorulmaz əməyi ilə qoyulmuş bu dayanıqlı inkişaf İlham Əliyevin dövlət xadimi istedadı sayəsində davam edir..."



### Hamını yalnız xoş əməllərə dəvət edən peyğəmbər xasiyyətli şəxsiyyət

Ulu Öndərin siyasi irsinin yorulmaz araşdırıcısı, "Heydərnamə" epopeyasının müəllifi, tanınmış yazıçı Hüseynbala Mirələmovun məşhur rus ədibi Viktor Andriyanovla birgə qələmə aldığı və Moskvanın "Molodaya Qvardiya" nəşriyyatının "Görkəmli adamların həyatı" seriyasından nəşr olunan "Heydər Əliyev" kitabında Ümummilli Lider belə xatırlanıb: "Heydər Əlirza oğlu Əliyev Azərbaycan Respublikası Ali Soveti sədrliyinə gizli səsvermə yolu ilə seçilmişdi. Onun lehinə deputatlardan çoxu səs vermişdi. Sonra onun xalqa və deputatlara ilk müraciəti - göstərilən etimada görə təşəkkür çıxışı oldu. Bu çıxışda o öz əsas məqsədlərini açıqladı: bu, Azərbaycan xalqının tarixi nailiyyəti olan dövlət müstəqilliyinin müdafiəsi və inkişafıdır: " Azərbaycan Respublikasının milli müstəqilliyi 1918-ci ildə yaranmış ilk müstəqil Azərbaycan Demokratik Respublikasının ənənələrinə və müasir dünyada baş verən ictimai-siyasi hadisələrə uyğun təmin olunmalıdır".

Artıq müxalifət lideri yox, bütün dövlət üçün, xalq üçün məsuliyyət daşıyan parlament rəhbəri çıxış edirdi. Düzdür, bir il əvvəl prezident seçilən Elçibəy hələ də iş başındaydı, amma nüfuzunu sürətlə itirməkdəydi. Heydər Əliyevin bir siyasətçi və dövlət xadimi kimi uzaqgörənliyi, zəngin bilik ehtiyatı özünü daha çox bürüzə verdi: vəziyyətin dəqiq qiymətləndirilməsi, perspektivlərin düzgün müəyyənləşdirilməsi, cəsarət və qarşıya qoyulan məqsədə doğru inamla addımlamaq.

O günlərin dəyişən, rəngdən-rəngə keçən gah tragik, gah da tragikomik mahiyyət alan hadisələrinin fonunda Heydər Əliyevin bu çıxışı Azərbaycanın hüdudlarından kənarda demək olar ki, naməlum qaldı. Amma məhz bu çıxışda o özünün əsas məqsədlərini, prinsipial mövqeyini qısa şəkildə açıqlamışdı:

"...Mən ömrümün qalan hissəsini, harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişafına həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, Azərbaycan Respublikası bundan sonra heç vaxt müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olunmayacaq və heç bir başqa dövlətin əsarəti altına düşməyəcək. Bəzən belə şayiələr gəzir ki, guya, keçmiş Sovetlər İttifaqının bərpa olunması və Azərbaycan Respublikasının da oraya daxil olması ehtimalı var. Bu, boş xülyadan başqa bir şey deyil. Mən bu fikirləri qətiyyətlə rədd edirəm və bütün Azərbaycan vətəndaşlarını da bu fikirləri rədd etməyə çağırıram".

Əlahəzrət zaman Ulu Öndərin necə uzaqgörən olduğunu sübut etdi.

Hüseynbala Mirələmov sözügedən kitabda Ulu Öndəri böyük sevgi və minnətdarlıqla xatırlayaraq Heydər Əliyevi hamını yalnız xoş əməllərə dəvət edən peyğəmbər xasiyyətli şəxsiyyət kimi xarakterizə edib.

### Heydər Əliyev Azərbaycanı xilas etdi

Heydər Əliyev siyasi irsinin tədqiqatçısı, Xalq yazıçısı Elmira Axundovanın "Heydər Əliyev: şəxsiyyət və zaman" kitabında da Ulu Öndərlə bağlı maraqlı, unudulmaz xatirələr yer alıb. Həmin xatirələrdə həm də həmin gərgin dövrün siyasi mənzərəsi gözümüz önündə canlanır: " ...Bu hadisələrdən xeyli sonra Heydər Əliyev doğma Naxçıvanda səfərdə olarkən, 1993-cü ilin o dramatik iyun günlərini belə xatırlayırdı: "Onlar (o vaxtkı hakimiyyət- E.A) nə qədər aciz vəziyyətdə idilər ki, hətta özləri devirmək istədikləri adama - Heydər Əliyevə müraciət etməyə məcbur oldular... Xatirimdədir, Ali Məclisin binasının qarşısında bir dəstə qadın toplaşmışdı. Sadə insanlar idilər, ağlayırdılar. Mən hamısına deyirdim ki, darıxmayın, iki gündən sonra gələcəyəm. Həqiqətən mən Bakıda qalmaq fikrində deyildim, Naxçıvanı tərk etmək, sizdən ayrılmaq fikrində deyildim. Mən bu sözləri səmimi dedim. Bəlkə iki gün olmasın, üç gün olsun, dörd gün olsun, oraya geriyə dönmək üçün getmişdim. Ancaq tale tamamilə başqa cür sərəncam verdi. Mən orada qalası oldum..."

Elmira Axundova çoxcildliyində vurğulayıb ki, 1993-cü ilin iyun ayında Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü, onun siyasi Olimpin zirvələrinə ikinci, daha parlaq və müzəffər yüksəlişi başlandı. Bu yolun təməli 1990-cı ilin iyulun 22-də Naxçıvanda qoyulmuşdu. O öz "kiçik vətənini" narahatlıqla tərk edib gedirdi, hərçənd muxtar respublikaya rəhbərlik etdiyi iki ildən az müddətdə o, başlıca məqsədinə nail olmuşdu- Naxçıvanı işğaldan xilas etmiş, sərt blokadanı aradan qaldırmış, Naxçıvan sakinlərini aclıqdan və soyuqdan qorumuşdu. İndi o bütün ölkəni fəlakətdən qurtarmalı idi. Ona görə də bu gün respublikada tez- tez təkrarlayırlar: Naxçıvan Heydər Əliyevi, Heydər Əliyev isə Azərbaycanı xilas etdi"

Bir yazı çərçivəsinə sığdırılan bu yığcam fikirlər dahi öndər haqqında yazılanların, deyilənlərin yanında sadəcə dəryada bir damladır. Ümummilli Liderin həyatı, fəaliyyəti, haqqındakı düşüncələr və xatirələr bəlkə də yüzlərlə çoxcildliyə sığmayacaq miqyasdadır. Gözişləməz miqyasının dəqiq ölçüsü bilinməyən digər bir məfhum isə Ulu Öndərin xalqın qəlbində özünə qazandığı əbədilik sevgi və ehtiramdır... Məhz buna görə də xalqımız təkcə 15 İyun-Qurtuluş Günü ərəfəsində deyil, ilin bütün günlərində Heydər Əliyevi Azərbaycan dövlətinin xilaskarı, millətimizin təkcə siyasi lideri kimi deyil, həm də mənəvi hamisi kimi dərin minnətdarlıq hissi ilə xatırlamaqdan böyük qürur duyur...

**Sevinc Abdullayeva,**
***"İki sahil"***

# Dövlətçilik tariximizə qızıl hərflərlə yazılan gün

Sözsüz ki, hər bir xalqın taleyində xüsusi önəm daşıyan hadisələr və tarixi faktlar olur. 15 İyun - Milli Qurtuluş Günü də məhz Azərbaycan xalqının dövlətçilik tarixinə qızıl hərflərlə yazılmış günlərdən biridir. **Milli Məclisin deputatı Kamran Bayramov bu əlamətdar tarixi günələ bağlı "İki sahil" qəzetinə açıqlamasında bildirdi ki,** ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışı Azərbaycan tarixinə möhtəşəm hadisə kimi yazıldı: "Hələ 1991-ci ilin oktyabr ayının 18-də Azərbaycan dövlət müstəqilliyini bərpa etdi. Amma çox təəssüf ki, müstəqilliyin ilk illərində dövlətin sükanı arxasında xalqın həmrəyliyini təmin edə biləcək qüdrətli bir lider yox idi. Bu səbəbdən də həmin dövrdə çox ağır siyasi hadisələr baş alıb gedirdi. Ermənistan Azərbaycan ərazilərinin işğalını genişləndirir, əhalinin sosial vəziyyəti gündən-günə ağırlaşırdı. Ölkə daxilində siyasi vəziyyət getdikcə daha da gərginləşirdi. Ölkədə çətinliklərin qarşısını alan, xalqı öz arxasınca aparmaq iqtidarında olan rəhbərə çox böyük ehtiyac var idi. Sözsüz ki, hər kəs bu keyfiyyətləri ancaq ümummilli lider Heydər Əliyevdə gördü. Xalq




əmin idi ki, ölkəni düşdüyü bu cür ağır durumdan ancaq dahi şəxsiyyət xilas edə bilər. Belə bir ağır durumda ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdı. Elə həmin gündən etibarən Azərbaycan inkişaf, tərəqqi yolunu tutdu. 1993-cü ildən etibarən ulu öndər Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində Azərbaycan gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi".

Deputat qeyd etdi ki, 15 iyun tarixi Azərbaycanın inkişafında və tərəqqisində dönüş nöqtəsi oldu.

**Siyasi ekspert Azər Həsrət isə bildirdi ki,** 15 İyun - Milli Qurtuluş Günü həqiqətən də Azərbaycan üçün bir şans məsələsi oldu: "Doğrudan da 15 iyun olmasaydı, yəni 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyev hakimiyyətə gəlməsəydi, bu gün biz azad, müstəqil ölkəmiz haqqında bu cür ağızdolusu danışa bilməzdik. Əgər o vaxt ulu öndər Heydər Əliyev siyasəti olmasaydı bu gün bəlkə də



biz Suriyanın, İraqın gününə düşərdik. Biz hər gün hardasa bombaların, güllələrin partladığının şahidi olardıq. Amma dahi şəxsiyyət ölkəsini düşdüyü ağır durumdan xilas etdi, ona yeni nəfəs verdi. Bu gün dahi şəxsiyyətin apardığı uğurlu siyasət nəticəsində Azərbaycan dünyanın ən öndə gedən ölkələri sırasına yüksəlib. Elə bu baxımdan da 15 İyun Azərbaycan üçün sözün həqiqi mənasında əsl qurtuluş günü oldu. Düşünürəm ki, zaman keçdikcə biz 15 İyun - Milli Qurtuluş Gününün əhəmiyyətini daha da yaxşı dərk edəcəyik".

Ekspert əlavə etdi ki, bu gün Ulu Öndərin uzaqgörən siyasəti cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**Mənsumə Babayeva,**
***"İki sahil"***

# Zabit-gizir ailələri üçün yeni yaşayış binası istifadəyə verilib



**İyunun 11-də Kəngərli rayonunun Qıvraq qəsəbəsindəki hərbi hissədə zabit-gizir ailələri üçün yeni yaşayış binası istifadəyə verilib.**



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar və Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov tədbirdə iştirak ediblər.

Əlahiddə Ümumqoşun Ordu Komandanı, general-leytenant Kərəm Mustafayev tədbirə hazırlıqla bağlı raport verib.

Açılışı bildirən lent kəsilib. Bina ilə tanışlıqdan sonra zabit-gizir ailələri ilə görüş olub.

Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar çıxış edərək deyib: Bu gün istifadəyə verilən yaşayış binasında hərbçi ailələri və onların övladları yaşayacaqdır. Naxçıvanda olmaq və bu tədbirlərdə iştirak etmək qürurvericidir. Naxçıvan müasir və təmiz şəhərdir. Muxtar respublikanın inkişafı, qazanılan uğurlar, burada gördüklərim bizi sevindirməklə yanaşı, həm də güvən yaradır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xidməti yaşayış binasının istifadəyə verilməsi münasibətilə zabit-gizir ailələrini təbrik edərək deyib: Hər bir zabitin həyatında mənzilin çox böyük önəmi vardır. Çünki ailəsinin rahat yaşayışının təmin olunması zabitin xidmətinin uğurlu olmasında başlıca şərtdir. Dövlətimiz xidməti vəzifələrini layiqincə yerinə yetirən hərbi qulluqçuların əməyini daim yüksək qiymətləndirir. Xidmət zamanı onlar hərtərəfli qayğı ilə əhatə olunur, eyni zamanda, 20 il qüsursuz xidmət edənlərə dövlət tərəfindən mənzillər verilir, digər güzəştlər tətbiq olunur. Bütün bunlar isə imkan verir ki, zabitlər öz xidmətlərini uğurla apararaq ordumuzun güclənməsinə töhfə versinlər.



Ali Məclisin Sədri deyib: Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu siyasəti ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır. Həmçinin ordumuz davamlı inkişaf mərhələsindədir. Bu da imkan verəcək ki, gələcəkdə Azərbaycan Ordusu torpaqlarımızın müdafiəsini etibarlı təşkil etməklə yanaşı, həm də işğal olunmuş torpaqlarımızı azad etsin.

Ali Məclisin Sədri qarşıdan gələn 15 İyun - Milli Qurtuluş Günü və 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə bütün hərbi qulluqçuları, eləcə də onların ailələrini təbrik edib, yeni xidməti mənzillə təmin olunanlara rahat və firavan həyat arzulayıb.

Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov mənzillə təmin olunan ailələri təbrik edib.

Mənzillə təmin olunmuş zabit Məhəmməd Hüseynov göstərilən diqqət və qayğıya görə minnətdarlıq edib.

Hərbçi ailəsinin üzvü Vüsalə Abdullayeva deyibki, bu gün Naxçıvan Muxtar Respublikasının inkişafı göz önündədir. Hər gün müasirləşən və gözəlləşən bir diyarda yaşayırıq.

Vüsalə Abdullayeva hərbçi ailələri adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar və Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov mənzillə təmin olunmuş hərbi qulluqçuları və onların ailə üzvləri ilə xatirə şəkli çəkdiriblər.

15 İyun - Milli Qurtuluş Günü və 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə mənzillə təmin olunan hərbçi ailələrinə Naxçıvan Muxtar Respublikası Ali Məclisi adından xalça hədiyyə edilib.

### Yeni istirahət parkı hərbçi ailələrinin rahatlığına xidmət edəcək

İyunun 11-də Qıvraq qəsəbəsində hərbçi ailələri və sakinlər üçün yeni istirahət parkı istifadəyə verilib.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar və Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov parkda yaradılan şəraitlə tanış olublar.

Bildirilib ki, 2 hektar sahəsi olan parkda sakinlərin və hərbçi ailələrinin istirahəti üçün lazımi şərait yaradılıb. Parkda yaşıllıq və gülkarlıq sahələri ayrılıb, gəzinti yolları çəkilib. Həmçinin burada fəvvarə və müasir işıqlandırma sistemi quraşdırılıb, oturacaqlar qoyulub, dayanacaq yaradılıb.



# Azərbaycan həqiqətlərinin təbliğində dini icmaların yeri və rolu



Dünən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Azərbaycan həqiqətlərinin təbliğində dini icmaların yeri və rolu" mövzusunda konfrans keçirildi.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov aparıcı dini konfessiyaların, dini icmaların, xüsusilə qeyri-islam təmayüllü dini icmaların Azərbaycan həqiqətlərinin təbliğindəki rolundan geniş bəhs etdi. Azərbaycanın tolerant ölkə olaraq multikultural dəyərlərin inkişafına böyük töhfələr verdiyini önə çəkən G.İsmayılov qeyd etdi ki, hər bir dövlətin gücü iqtisadi qüdrəti ilə yanaşı, milli və dini birliklər ilə ölçülür. Millətlərarası, dinlərarası münasibətlərin sağlam istiqamətdə inkişafında Azərbaycanın sadiq qaldığı dəyərlər həqiqətən öyrənilməyə və təbliğ olunmağa layiqdir. İslami dəyərlərdən qaynaqlanan başqa dinlərə dözümlülük, qarşılıqlı anlaşma prinsiplərinə sadiq qalan azərbaycanlılar hər zaman bütün millətlərə hörmətlə yanaşırlar. Ölkəmizdə inkişaf etdirilən demokratiyanın tələblərinə uyğun olaraq insanlar üçün sərbəst düşünmək, istədiyi dinə inanmaq imkanı yaranır, dövlət-din münasibətləri sivil prinsiplərə uyğun tənzimlənir.

G.İsmayılov Azərbaycan həqiqətlərinin, xüsusilə 25 ildən artıqdır davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin, Azərbaycanın tolerant və multikulturalizm təcrübəsinin dünya ictimaiyyətinə çatdırılmasında dini icmaların öz payı olduğunu diqqətə çatdırdı. Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə 2016-cı ilin ölkəmizdə "Multikulturalizm İli", 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi bir daha ölkəmizin qeyd olunan istiqamətlərdə zəngin təcrübəyə malik olduğunu təsdiqlədi.

QMİ-nin sədr müavini Fuad Nurullayev, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski, Rus pravoslav kilsəsinin Azərbaycan yeparxiyasının nümayəndəsi Konstantin Pominov, Xilaskar Yevangelik Lüteranların Bakı dini icmasının sədri Vera Nesterova mözvu ilə bağlı fikirlərini bölüşdülər. Çıxış edənlər ölkəmizdə dilindən, irqindən asılı olmayaraq bütün vətəndaşların eyni hüquqlara malik olduğunu və bu hüquqların müvafiq qanunlar əsasında qorunduğunu diqqətə çatdırdılar. Məhz bu yanaşma hər bir məsələnin həllində, o cümlədən həqiqətlərimizin təbliğində fəal iştirakı bir zərurət kimi ortaya qoyur.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin nümayəndəsi Yadigar Məmmədli bildirdi ki, Qərblə Şərq arasında sivilizasiyalararası dialoq məkanına çevrilən, dinlərarası, millətlərarası münasibətlərdə təcrübəsi öyrənilən, nümunə göstərilən ölkəmizdə keçirilən çoxsaylı beynəlxalq tədbirlər, forumlar, konfranslar Azərbaycanı dünyada tolerantlıq məkanı, dözümlülük, multikulturalizm mərkəzi kimi tanıdır. Təbii ki, belə tədbirlər Azərbaycan reallıqlarının təbliğinə böyük töhfədir.

✍ **Röya Rasimqızı,**
***"İki sahil"***

## Gündəlik neft hasilatı 776 min barrel olub

Azərbaycan mayda neft hasilatının azaldılması ilə bağlı öhdəliyini tam yerinə yetirib.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, respublikada may ayı üzrə sutkalıq neft istehsalı 776 min barrel olub. Bunun 699 min barrelini xam neft, 77 min barrelini kondensat təşkil edib. Gündəlik 494 min barrel xam neft, 75 min barrel kondensat, 14 min barrel neft məhsulları isə ixrac edilib.

Gündəlik neft hasilatının 776 min barrel həcmində saxlanmasına dair razılaşma müqabilində Azərbaycan hasilatı sutkada 20 min barrel azaltmaqla bağlı götürdüyü öhdəliyi tam yerinə yetirib. Cari ilin yanvar-may aylarında orta gündəlik neft hasilatı 771,2 min barrel təşkil edib.

Energetika Nazirliyi may ayında gündəlik neft hasilatı ilə bağlı məlumatları Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) Birgə Monitorinq Komitəsinin Müştərək Texniki Komissiyasına təqdim edib.

Xatırladaq ki, ötən il dekabrın 7-də Vyanada OPEC-ə üzv və qeyri-üzv dövlətlərin nazirlərinin V görüşündə neft hasilatının gündəlik 1,2 milyon barrel azaldılması ilə bağlı razılıq əldə olunub. "Əməkdaşlıq Bəyannaməsi"nin icrası cari ilin ilk yarısı üçün nəzərdə tutulub.

## DAŞKƏNDDƏ ULU ÖNDƏRİN ABİDƏSİNİ ZİYARƏT



Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini, ölkəmizin ABŞ-dakı ilk səfiri, ADA Universitetinin rektoru, professor Hafiz Paşayev Özbəkistanda işgüzar səfərdədir.

Səfər çərçivəsində Hafiz Paşayev ölkəmizin Özbəkistandakı səfiri Hüseyn Quliyevlə birgə Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinə gələrək Ulu Öndərin bu binanın qarşısındakı abidəsi önünə gül dəstələri qoyublar.

Sonra Hafiz Paşayev Mədəniyyət Mərkəzindəki Heydər Əliyev Muzeyi və Azərbaycan Dövlətçilik Tarixi Muzeyi ilə tanış olub, foyedə Mərkəzin Daşkənddə özbək dilində çap etdirdiyi kitablardan ibarət sərgiyə baxıb.

Qonağa Mədəniyyət Mərkəzinin fəaliyyəti, burada keçirilən tədbirlər haqqında məlumat verilib. Bildirilib ki, mərkəzdə müxtəlif kurs və dərnəklər fəaliyyət göstərir, azərbaycanlıların və digər xalqların uşaqları pulsuz olaraq bu dərnək və kurslarda məşğul olurlar.

## BAKI ALİ NEFT MƏKTƏBİNİN KOMANDALARI III ROBOT OLİMPİADASININ QALİBİDİR




Bakı Ali Neft Məktəbinin komandaları ölkəmizdə 8-19 yaşlı yeniyetmə və gənclər arasında keçirilən III Robot Olimpiadasının qalibi olublar.

Ümumilikdə, 6 kateqoriya üzrə keçirilən Olimpiadada 30 müəssisədən 62 komanda iştirak üçün qeydiyyatdan keçib. Bundan əlavə, olimpiadada ilk dəfə Gəncə, Sumqayıt şəhərlərindən və Lənkəran rayonundan olan yeniyetmə və gənclər də iştirak ediblər.

III Robot Olimpiadası Heydər Əliyev Mərkəzində "İnnovasiya Festifalı" çərçivəsində Gənclər və İdman, Təhsil, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirliklərinin dəstəyi, Azərbaycan Robotexnika Mühəndisliyi Akademiyası və "Gənclərin Təhsil, Təlim, Peşə və İnkişaf Mərkəzi" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilib.

Bakı Ali Neft Məktəbi Olimpiadada "Open Senior" kateqoriyası üzrə 2 komanda ilə təmsil olunub. Bu kateqoriya üzrə 10 komanda qeydiyyatdan keçsə də, yarış zamanı yalnız 5 komanda qalibiyyət uğrunda mübarizə aparıb. Bakı Ali Neft Məktəbini təmsil edən komandalar 1-ci və 3-cü yerin qalibi olublar.

1-ci yerin qalibi Bakı Ali Neft Məktəbinin Proseslərin avtomatlaşdırılması mühəndisliyi fakültəsinin 2-ci kurs tələbələri Eyvaz Nəcəfli, Rüstəm Məmmədli və Əli Əsgərovun üzvü olduqları "TechNoBotics" komandası olub.

3-cü yerə isə ali məktəbin Proseslərin avtomatlaşdırılması mühəndisliyi fakültəsinin 2-ci kurs tələbələri Azər Əliyev, Məryəm Allahverdiyeva, Tural Həsənov və Neft-qaz mühəndisliyi fakültəsinin 2-ci kurs tələbəsi Toğrul Tahirovun təmsil olunduqları "Cosa Nostra" komandası çıxıb.

I yerə çıxan komandamız bu ilin 8-10 noyabr tarixində Macarıstanda keçiriləcək Dünya Robot Olimpiadasında iştirak hüququ qazanıb.

Qeyd edək ki, dünyanın ən böyük robototexnika yarışı olan Dünya Robot Olimpiadası 2004-cü ildən etibarən hər il fərqli mövzular üzrə müxtəlif ölkələrdə keçirilir. İlk dəfə Sinqapurda təşkil edilən bu Olimpiadada 12 ölkə iştirak etsə də, hazırda bu say 70-i ötüb.

Xatırladaq ki, Azərbaycan 2017-ci ilin sonunda Dünya Robot Olimpiadasının həqiqi üzvlüyünə qəbul edilib.

**Zamin Məmmədov,**
***"İki sahil"***

## "BAKCELL" UŞAQLARA İNTERNETDƏN TƏHLÜKƏSİZ İSTİFADƏNİ ÖYRƏDİR



"Bakcell" şirkəti Azərbaycanın ilk FTTH provayderi olan "ENGİNET" şirkəti ilə birlikdə Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Bakı şəhərinin müxtəlif parklarında uşaqlar üçün təhlükəsiz internetdən istifadəyə həsr olunmuş aksiya təşkil edib.

Tədbirlər "Təhlükəsiz İnternet" layihəsi çərçivəsində həyata keçirilib. Valideynlərə və uşaqlara internet mühitindəki zərərli məzmun, internetdən təhlükəsiz istifadə qaydaları və "Bakcell" və "ENGİNET" şirkətlərinin birgə hazırladıqları "Təhlükəsiz İnternet Paketi" barədə geniş məlumat verilib.

Qeyd edək ki, "Bakcell" tərəfindən bir neçə il bundan əvvəl istifadəyə verilmiş və artıq 4G şəbəkəsində də fəaliyyət göstərən "Təhlükəsiz İnternet Paketi" uşaqlar üçün internetdən təhlükəsiz istifadəni təmin edir. Bu internet paketləri və "ENGİNET" şirkətinin "İnternet Filtrasiya Xidməti" sayəsində "Bakcell" abunəçiləri öz uşaqlarının internetdən təhlükəsiz istifadəsini təmin edə və onları zərərli və arzuolunmaz məzmundan qoruya bilərlər.

"Təhlükəsiz İnternet" paketi haqqında daha ətraflı məlumat https://www.bakcell.com/az/internet-safe-internet səhifəsində əks olunur.

# Naxçıvanda "Cavidşünaslıq" oncildliyinin təqdimatı olub



**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Naxçıvan Bölməsində böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin həyat və yaradıcılığına aid ayrı-ayrı dövrlərdə qələmə alınan məqalələrin, müxtəlif səpkili materialların yer aldığı dəyərli elmi mənbə olan "Cavidşünaslıq" oncildliyinin təqdimatı olub.**



AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, oncildliyin ideya müəllifi AMEA-nın prezidenti, akademik Akif Əlizadə, elmi məsləhətçisi AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, tərtibçisi AMEA Hüseyn Cavidin Ev-Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi, filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlı, layihə rəhbəri AMEA Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimlidir.

Tədbir iştirakçıları əvvəlcə 1996-cı ildə ulu öndər Heydər Əliyevin himayəsi ilə Naxçıvan şəhərində Hüseyn Cavidin məzarı üzərində əzəmətlə ucaldılan məqbərəsi önünə gələrək gül dəstələri qoyub, Hüseyn Cavidin Ev-Muzeyini ziyarət ediblər.

Təqdimat mərasimində AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək bildirib ki, Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndələrindən olan şair-dramaturq Hüseyn Cavid Şərqin zəngin fəlsəfi-poetik irsi zəminində yüksələrək və dünya romantizm ənənələrindən uğurla bəhrələnərək Azərbaycan xalqının ədəbi-bədii fikir salnaməsinə parlaq səhifələr yazıb.

Vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə vaxtilə milli ruhda yazılan, türkçülük ideologiyasını və islami dəyərləri təbliğ edən əsərlərə görə repressiya qurbanı olan Hüseyn Cavidin cənazəsinin 1982-ci ildə Uzaq Sibirdən Bakıya, noyabrın 2-də isə Naxçıvana gətirilməsi böyük cəsarət tələb edən nadir tarixi hadisə idi. 1992-ci il oktyabrın 23-də Naxçıvanda Hüseyn Cavidin 110 illik yubileyi təntənəli şəkildə qeyd edilib, Naxçıvanda Ali Məclisin Sədri vəzifəsində işləyən Ümummilli Lider yubiley tədbirində Hüseyn Cavid haqqında dərin məzmunlu çıxış edib. Bakıda Hüseyn Cavidin abidəsi ucaldılıb, 125, 130 və 135 illik yubileyləri geniş qeyd edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yubileylərlə bağlı müvafiq sərəncamlarına əsasən qədim diyarımızda yubiley tədbirləri yüksək səviyyədə təşkil olunub.

Bölmə sədri qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 18 aprel tarixli Sərəncamı ilə Azərbaycan mədəniyyətinin dəyərli simalarından biri kimi zəngin irs yaradan, musiqişünas, rəssam və tədqiqatçı, Hüseyn Cavid irsinin davamçısı Ərtoğrol Cavidin 100 illik yubileyinin qeyd olunması, belə bir əlamətdar ildə Hüseyn Cavidin həyat və yaradıcılığından bəhs edən "Cavidşünaslıq" 10 cildlik dəyərli toplunun təqdimatının ilk olaraq onun doğulduğu diyarda keçirilməsi böyük tarixi hadisədir. Kitabda yer alan materiallar Cavid irsini araşdıran tədqiqatçılar üçün əsaslı mənbə rolunu oynayacaq.



Tədbirdə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək bildirib ki, Azərbaycan ədəbiyyatında mənzum dramın əsasını qoyan görkəmli dramaturq Hüseyn Cavidin yaradıcılığı XX əsrin 20-30-cu illərində ədəbi tənqidin və mətbuatın diqqətində olub. "Burjua-millətçi" baxışlarına, turançılıq görüşlərinə malik olan, sovet cəmiyyətinə laqeyd münasibət bəsləyən sənət adamı kimi 1937-ci ildə həbs olunan böyük ədib 1956-cı ildə siyasi bəraət alıb. Buna baxmayaraq, əllinci illərin sonlarınadək Hüseyn Cavid haqqında ciddi bir məqalə yazılmayıb.

İsa Həbibbəyli deyib: Ulu öndər Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründən başlayaraq son yarıməsrlik müddətdə Hüseyn Cavidin həyatı və çoxcəhətli yaradıcılığı geniş və sistemli şəkildə tədqiq edilib. Bir sıra alimlər görkəmli ədibin poeziya və dramaturgiyası, ədəbi-nəzəri görüşlərinə dair sanballı elmi-tədqiqat əsərləri yazaraq nəşr etdiriblər. Azərbaycan cavidşünaslığın keçdiyi bir əsrlik böyük və keşməkeşli yol çoxcildlik külliyyatı yaratmağa imkan verir. Ümumilikdə, 30 cildlik nəzərdə tutulan toplunun bu gün təqdimatı keçirilən ilk 10 cildliyi gələcək tədqiqatçılar üçün etibarlı, əsaslı məxəzdir.

Qeyd edilib ki, nəşrin XX əsrin 20-30-cu illərini əhatə edən cildləri bu mürəkkəb, zəngin və ziddiyyətli dövrün ədəbi mübahisələrini, bu mübahisələrin hansı problemlər ətrafında getdiyini, Hüseyn Cavidi repressiyaya aparan səbəblər bir ədəbi-tarixi epoxa kimi ədəbi tənqidin nəzəri-metodoloji səhvlərini aydınlaşdırmağa material verir. Kitabda Hüseyn Cavid şəxsiyyətinin yenilməzliyi, bütövlük və əzəməti əks olunur. Bir sözlə, AMEA-nın elmi layihəsi əsasında hazırlanmış "Cavidşünaslıq" çoxcildliyi görkəmli şairin bütöv şəxsiyyətinə və ölməz sənətinə ucaldılmış elmi abidədir.

AMEA Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli çıxışında diqqətə çatdırıb ki, gərgin zəhmətin məhsulu sayılan yeni nəşr böyük romantik şair və filosof haqqında möhtəşəm bir dövrün tarixini geniş şəkildə əks etdirir, onun ədəbi-bədii düşüncə tariximizdəki irsini görməyə və göstərməyə imkan yaradır.

AMEA Hüseyn Cavidin Ev-Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi, filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlı çıxışında rəhbəri olduğu muzeyin mütəfəkkir sənətkarın yaradıcılığının təbliği, tədqiqi və sistemləşdirilməsi ilə məşğul olduğunu bildirib. O qeyd edib ki, "Cavidşünaslıq" 10 cildlik kitabda böyük şair Hüseyn Cavidin zəngin irsi haqqında çoxsaylı məqalə və resenziyalarla yanaşı, bütün məlumatlar öz əksini tapıb. Toplunun növbəti cildləri üzərində də işlərin davam etdirildiyini vurğulayan Gülbəniz Babaxanlı vurğulayıb ki, özündə əks etdirdiyi zəngin elmi informasiya baxımdan çoxcildli nəşr cavidşünaslığın inkişafında tədqiqatçılar üçün dəyərli bir mənbədir.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin Dil, Ədəbiyyat və İncəsənət İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Yadigar, Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Bəhruz Axundov çıxış edərək dəyərli elmi nəşrin əhəmiyyətindən danışıblar.

Sonda AMEA Naxçıvan Bölməsinə və muxtar respublikada fəaliyyət göstərən ali təhsil ocaqlarına "Cavidşünaslıq" 10 cildlik, Ərtoğrol Cavidin seçilmiş əsərlərindən ibarət 13 cildlik, Azərbaycan ədəbiyyat tarixi kitabları, eləcə də Ərtoğrol Cavidin musiqi əsərlərindən ibarət disklər hədiyyə olunub.

GƏNCLİYİMİZ GƏLƏCƏYİMİZDİR

# Vətən yolunda şəhid olmaq vətəndaşlığın ali zirvəsidir

## Müsahibimiz Bakı Slavyan Universitetinin tələbəsi Rahim Mirzəcandır



***-Rahim, ilk olaraq özün haqqında məlumat ver.***

-20 yaşım var. 2017-ci ildə Yardımlı rayon Anzov kənd tam orta məktəbini bitirmişəm. Həmin ildə də Bakı Slavyan Universitetinin (BSU) Azərbaycan filologiyası və jurnalistikası fakültəsinə qəbul olunmuşam. Elə ali təhsil almağa başladığım ilk illərdən bir sıra mətbuat orqanları ilə əməkdaşlıq etdim. Bir neçə internet televiziyalarında aparıcı-müxbir kimi ilkin fəaliyyətim oldu. Universitet daxilində təşkil olunan tədbirlərdə iştirak edib, oradan xəbərlər hazırlayıb saytlara göndərirdim. İctimai fəallığıma görə bir çox təşəkkürnamələr, sertifikatlarla təltif olunmuşam.

***-Niyə ixtisas seçimin məhz jurnalistika oldu?***

-Bu sənətə sevgim məhz onun adına olan vurğunluğumdan başlayır. Valideynlərim, ən çox da atam Azərbaycan dili və ədəbiyyatı müəllimi olmağımı istəyirdi. Təbii ki, bütün işlərdə valideynlərin də razılığı olmalıdır. Ancaq ixtisas seçimi istisnadır. Çünki bu peşəni sən özün davam etdirəcəksən. Axı sevmədiyin bir işin arxasınca qaçıb yorulmaq, ən əsası ömrünün ən şirin vaxtlarını boşu-boşuna itirməkdir. Mənə elə gəlir ki, düzgün qərar verdim.




***-Modern dövrdə sosial medianın aktual və tələbatlı olmasına münasibətin necədir?***

- İndi sosial media dedikdə internet, internet dedikdə gənclik yada düşür. Həm gənc olmağımız, həm də texnoloji vasitələrin inkişaf etdiyi indiki dönəmdə yaşamağımız, üstünlük yaradır, əlaqələrimiz daha geniş olur. Əsasən "Facebook"da aktiv oluram. Dostluğumda peşəkar jurnalistlər çoxluq təşkil edir. Onların fəaliyyətlərini izləyirəm. İxtisaslaşmağım üçün bunu çox önəmli sayıram. Bir də hobbi kimi məşğul olduğum müğənnilik fəaliyyətimdən paylaşımlar edərək, öz auditoriyamı genişləndirmək istəyirəm.

***- Hansı musiqi janrı sənin iç dünyana daha yaxındır?***

-Musiqi dünyam deyərdim ki, indiki gəncliyin musiqi dünyasından çox fərqlidir. Həmyaşıdlarımın səs-küylü musiqilər, estrada mahnıları dinlədikləri halda, mən isə xalq musiqilərinə, ən çox da muğamlara qulaq asıram. Qədir Rüstəmov, Teymur Mustafayev, Əlibaba Məmmədov, Alim Qasımov və onun tələbələri, bir qədər müasirlərdən Mirələm Mirələmov, Elnarə Abdullayeva, Zakir Əliyev kimi sənətkarları dinləyərək bəhrələnirəm, musiqi zövqümü inkişaf etdirirəm. Bəlkə də, Azərbaycan muğamına bu qədər bağlı olmağım uşaqlıqdan bəri könlümdə tüğyan edən xanəndə olmaq sevgisi ilə bağlıdır.

***-Asudə vaxtlarını necə dəyərləndirirsən?***

-Əsasən evdə beynimdə verilişlərin ssenarisini cızıram, aparıcılıq edib, gələcəyin aparıcısı kimi özümü efirə hazırlayıram. Bir də ən çox özümü səhnələrdə, çoxsaylı auditoriya qarşısında düşünüb mahnılar, muğamlar ifa edirəm. Bu da mənə səhnədə sanki ilk dəfə deyilmiş kimi hiss etməyimə kömək edir. Daha uğurlu oları. Ara-sıra şeirlər, problem xarakterli yazılar yazıram. Parodiya etmək qabiliyyətim var. Məktəb vaxtından bayram tədbirlərində şagird dostlarımızla birlikdə maraqlı parodiyalar edirdik. Dostlarımın üzündə təbəssüm yaratmaq məni də sevindirir. Bundan başqa, sosial media hesablarımda təhsil haqqında yeni xəbərlər paylaşıram. Beləliklə də, ən son yeniliklərdən abituriyentlərin, valideynlərin, müəllimlərin məlumatı olur.



***-Rahim, Vətən sənin üçün hansı anlamı ifadə edir?***

- Vətən xüsusi sevgi və hörmətə layiq müqəddəs torpaqdır. İnsan mənəviyyatını müəyyən edən, zənginləşdirən önəmli əxlaqi prinsiplərdən biri də xalq və Vətən sevgisidir. Onun dağı, daşı, torpağı, suyu, səması bizim üçün əzizdir, doğmadır. Vətən kəlməsi nə qədər də mənalı və dərindir. Deyilişi şirin olduğu kimi, məzmunu, qayəsi də yüksək və hikmətlidir. Tariximizə nəzər salsaq görərik ki, elimizin, obamızın ən gözəl ənənələrindən biri də torpağa, ana yurda, vətənə bağlılıq, xalqımızı zaman-zaman yadelli işğalçılardan qorumaq, vətən üçün candan keçmək olmuşdur. Elə buna görə də xalqımızın vətən uğrunda, torpaq uğrunda canından, qanından keçən saysız-hesabsız, unudulmaz qəhrəmanları olmuşdur. Azərbaycan torpağı müqəddəs torpaqdır. Bu torpağa qanı tökülən igidlərin yazdıqları tarix və etdikləri igidliklər Azərbaycanın müqəddəs torpağını daha da ulu etmişdir. Şəhidlər üçün yazılan hekayətlər həm də gələcək nəsillər üçün ibrət dərsidir. Vətən yolunda şəhid olmaq vətəndaşlığın ən ali zirvəsidir. Bütün zirvələrdən yüksəkdə duran ilahi bir zirvə, həm də o, adi gözlə yox, yalnız mənəvi gözlə görülə biləcək bir zirvədir. Bu günün gənci sabahın atası, anası, ailə başçısıdır. Onun öz övladını necə tərbiyə etməsi isə ilk növbədə bu gün onun özünün necə yetişdirilməsindən asılıdır.

***-Qarşıdan Azərbaycan tarixinin şanlı səhifəsi 15 iyun - Milli Qurtuluş Günü gəlir. Bu tarixi gün haqqında fikirlərini eşitmək istərdik...***

-Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 iyun sadəcə təqvim bayramı deyil, həm də siyasi və tarixi əhəmiyyətə malik gündür. 1993-cü il iyunun 15-i Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olub və dövlətçiliyimiz yox olmaq təhlükəsindən xilas edilib. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, dünyada Azərbaycanın nüfuzu artır. Ümummilli lider Heydər Əliyevin dahi şəxsiyyət kimi yürütdüyü siyasətin başlıca qayəsi Azərbaycanı hər bir vətəndaşının təhlükəsizliyini qoruya biləcək qədər qüdrətli dövlətə çevirmək olmuşdur. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümummilli Liderimizin siyasi xəttinə sadiq qalaraq müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır.



***- Dövlətimizin Azərbaycan gəncləri üçün yaratdığı imkanlar haqqında nə deyə bilərsən?***

-Ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynamışdır. Bu gün gənc nəslin vətənpərvərlik ruhunda yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Bu gün cənab Prezident tərəfindən həyata keçirilən gənclər siyasəti yeni mərhələsini yaşayır. Azərbaycan dövləti sürətli inkişaf dövrünü yaşayır və bu inkişaf təbii ki, gənclər üçün yeni imkanlar açır. Azərbaycanın maliyyə-iqtisadi imkanları artdıqca, bütün sahələrin inkişafına kapital qoyulur və bu, çox müsbət nəticələr verir. Təbii ki, gənc nəsil bu prosesdən kənarda qalmayıb və gəncliyin inkişafı, yüksək intellektli, vətənpərvər gəncliyin yetişməsi üçün çox əhəmiyyətli layihələr həyata keçirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin başlıca istiqamətlərindən biri gənclərə dövlət dəstəyinin gücləndirilməsindən, onlara hərtərəfli diqqət göstərilməsindən ibarətdir.

***-Rahim, Azərbaycan gənclərini necə görmək istəyirsən?***

- Atalarımız deyib ki, elm ağlın çırağıdır. Elm, fərasət olmazsa, işlərini düzgün qura, başqalarına xeyir verə, özünü idarə edə bilmərsən. Öyrənmək, araşdırmaq, axtarmaq, hər mövzudan, xəbərdən məlumatlı olmaq. Bir sözlə, Vətənimin gənclərini qabaqcıl, müasir, vətənpərvər, savadlı və peşəkar gənclik olaraq görmək istəyirəm.

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***

# Tovuzun Yuxarı Öysüzlü kəndində yeni massiv qazlaşdırılır



Dövlət başçısının müvafiq sərəncamları ilə qəbul olunan regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarına uyğun olaraq bu gün ölkəmizin ən ucqar ərazilərinə belə qaz xətti çəkilir, əhalinin "mavi yanacaq"dan istifadəsi üçün lazım olan bütün gərəkli addımlar atılır. Respublikanın bütün yaşayış məntəqələrində olduğu kimi, Tovuz rayonu da inkişaf etməkdədir. Burada yaradılan şərait nəticəsində mənzillərin sayı durmadan artmaqda davam edir və yeni yaşayış massivləri salınır. Cari ilin qazlaşdırma proqramında qazlaşdırılmış yaşayış məntəqələrinin genişlənən hissələrindəki yeni massivlərin qazlaşdırılması əsas yer tutur. Aparılan işlər çərçivəsində hazırda Tovuzun Yuxarı Öysüzlü kəndində yeni massivin qazlaşdırılması uğurla icra edilir.

Tərtib edilmiş layihəyə uyğun olaraq, yeni massivin "mavi yanacaq"la təmin olunması məqsədi ilə ümumi uzunluğu 13 min 200 metr müxtəlif diametrli daşıyıcı və paylayıcı qaz xətlərinin çəkilməsi və 104 evdə sayğac eləcə də fərdi tənzimləyici quraşdırılması nəzərdə tutulur. Yeni qazlaşdırılan yaşayış sahələrində qaz şəbəkəsinin qurulmasında "bir pilləli" tənzimləmə sistemi tətbiq edilir ki, bu da hər bir abonentin fərdi qaz tənzimləyicidən istifadə etməsinə və istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradır. Artıq görüləcək işlərin 80 faizi yerinə yetirilib, tezliklə ərazinin qazlaşdırılması tam yekunlaşacaq. Qeyd olunan yaşayış məntəqəsinə təbii qazın çəkilişi əhalinin sosial rifahının yaxşılaşdırılmasına və ekologiyanın qorunmasına xidmət edəcək.

# Xalqımızın tarixinə qızıl hərflərlə yazılan gün



Astara şəhərindəki Heydər Əliyev Mərkəzində Milli Qurtuluş Günü münasibətilə keçirilən "Xalqımızın tarixinə qızıl hərflərlə yazılan 15 İyun - Milli Qurtuluş Günü" mövzusunda sərgi və tədbir buraya gələn rayon sakinlərində böyük marağa səbəb oldu. Mərkəzin direktoru Kübra Səmədovanın açdığı tədbir Azərbaycanın dövlət müstəqilliyinin xilaskarı, dünya şöhrətli siyasətçi, böyük vətəndaş, ümummilli lider Heydər Əliyevin əziz xatirəsini hörmət və ehtiramla yad etməklə başlandı. Sonra nümayiş olunan "Tarixin şanlı səhifələri - Milli Qurtuluş Günü" adlı film də yerinə düşdü. İclas salonuna toplaşan tədbir iştirakçıları baxdıqları film sayəsində çox mətləblərdən agah oldular.

Heydər Əliyev Mərkəzinin Baş fond mühafizi Elza Kazımova mövzu ilə bağlı geniş çıxış etdi. O, tutarlı faktlar əsasında Milli Qurtuluş Gününün müasir tariximizdə rolu, Azərbaycanın taleyinin həll olunduğu ən ağır, faciəli vaxtında Ulu Öndərin yenidən hakimiyyətə qayıtması, eləcə də ölkəni parçalama, xalqı isə vətəndaş müharibəsi təhlükəsindən qoruması haqqında danışdı. Bildirdi ki, Ulu Öndər ölkənin müstəqilliyini qoruyub saxlamaqla bərabər, həm də onu əbədi, dönməz etdi. Ən əsası, ölkəmizin indiki yüksək səviyyəyə çatmasında onun xidmətləri misilsizdir, Azərbaycanın mövcudluğuna və qüdrətli bir ölkə olmasına görə hamımız bu dahi şəxsiyyətə borcluyuq.

Rayon İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Mirzəli Bayramov, Mərkəzləşmiş Kitabxana Sisteminin direktor əvəzi İlyas Məmmədov, Yeni Azərbaycan Partiyası rayon təşkilatının məsləhətçisi Rübabə Bağırova xalqın böyük oğlu Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə əldə olunan uğurlardan danışdılar, onun qədirbilən Azərbaycan xalqının qəlbində daim yaşadığını, Ulu Öndərin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdiyini söylədilər.

Axırda tədbir iştirakçıları Mərkəzi Fondda saxlanılan xalçalara, fotoşəkillərə, " Toxuculuq" və "Rəssamlıq" dərnəyinin üzvlərinin əl işlərindən ibarət sərgiyə baxdılar.

**Zəfər Orucoğlu,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

# Bədii qiraət müsabiqəsi




İyunun 11-də Yeni Azərbaycan Partiyası (YAP) Ucar rayon təşkilatının qərargahında böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar rayonun ümumtəhsil məktəblərinin şagirdlərinin iştirakı ilə bədii qiraət müsabiqəsi keçirilib.

YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva qeyd edib ki, 2019-cu ildə Nəsiminin anadan olmasının 650 illiyi tamam olur: "Ölkə Prezidentinin məlum Sərəncamı ilə 2019-cu il "Nəsimi İli" elan edilib. Azərbaycanın ədəbii-mədəni fikir tarixinin bu əlamətdar hadisəsinin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" 2018-ci il 15 noyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq tədbirlər planının icrası ilə əlaqədar silsilə tədbirlər sırasından bu gün keçirilən bədii qiraət müsabiqəsində rayonun ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdləri arasından seçilmiş 25 nəfər iştirak edib."

Münsiflər heyətinin iştirakı ilə iştirakçıların ifaları dinlənilib. Münsiflər heyətinin - üzvləri rayon Təhsil şöbəsinin müdiri Fuad İsrafilov, Ağdaş Regional Mədəniyyət və Turizim İdarəsinin Ucar rayonu üzrə nümayəndəsi Alı Babayev, YAP Ucar rayon təşkilatı Qadınlar Şurasının sədri, Qazyan kənd 1 nömrəli tam orta məktəbinin müəllimi Yaqut Zeynalova və Ağdaş Regional Mədəniyyət və Turizim İdarəsinin Ucar rayonu üzrə Mədəniyyət Mərkəzinin direktoru Ruslan Rəsulov hər bir iştirakçı haqqında fikirlərini bildiriblər.

Ucar şəhər 1 nömrəli məktəb-liseyinin 11-ci sinif şagirdi Ziba Abbasova birinci, şəhər 2 nömrəli tam orta məktəbinin 9-cu sinif şagirdi Vüsalə Sadıqova ikinci, Şahlıq kənd tam orta məktəbinin 11-ci sinif şagirdi Aytac Əhmədova üçüncü yerə layiq görülməklə diplom və qiymətli hədiyyələrlə təltif olunublar.

Sonda bütün iştirakçılar YAP Ucar rayon təşkilatının xatirə hədiyyələri ilə mükafatlandırılıblar.

**O.İsrafilov,**
***"İki sahil"***

# "XVIII-XIX əsr Azərbaycan bayraqlarında alov rəmzi"



Rusiya Federasiyasının Sankt-Peterburq şəhərindəki Dövlət Ermitajı Muzeyində 6-8 iyun 2019-cu il tarixində təşkil edilmiş "İN HOC SİGNO VİNCES" (Bu Bayraq Altında Qalib Gələcəksən) şüarlı Beynəlxalq bayraqşünaslıq simpoziumunda "QƏSR" Mədəni İrsi və Tarixi Abidələri Qoruyaq İB-nin sədrinin birinci müavini tarix üzrə fəlsəfə doktoru, bayraqşünaslıq və heraldika mütəxəssisi Pərvin Gözəlovun "XVIII-XIX əsr Azərbaycan bayraqlarında alov rəmzi" mövzusunda elmi məruzəsi dinlənilib.

P.Gözəlov bildirib ki, Azərbaycan xanlıqlarının bir hissəsini Rusiya İmperiyası silah gücü ilə tərkibinə daxil etmiş, digər hissəsini isə 1783-cü il "Georgievsk" və 1828-ci il "Türkmənçay" müqavilələri əsasında Rusiya İmperiyası və Qacar dövləti (İran) arasında bölünmüşdür. Rusiya İmperiyasının tərkibinə daxil edilmiş Azərbaycan xanlıqlarının dövlətçilik atributlarından ən vacibi olan bayraqları "Qənimət arsenalı"nda saxlanılsa da, sonrakı dövrlərdə bayraqlar bir neçə hissəyə bölünərək, müxtəlif fondlarda saxlanılıb.

Azərbaycanlı alim məruzəsində Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan üç bayraq haqqında məlumat verərək bildirib ki, Bakı xanlığının bayrağında "alov püskürən" əjdaha təsviri, Gəncə və Şəki xanlıqlarının bayraqlarının üzərində isə əks olunan "Lampa" təsviri isə "Alov" simvolunu ifadə etmişdir.

Məruzə zamanı fotoslaydlar nümayiş etdirilib və iştirakçıları maraqlandıran suallar məruzəçi tərəfindən cavablandırılıb.

*Emin Axundzadə:*

# TANAP layihəsində Azərbaycan dəyər zənciri üzrə bütün həlqələrdə əsas pay sahibidir

## MÜSAHİBİMİZ ENERGETİKA ÜZRƏ EKSPERT, BEYNƏLXALQ ƏLAQƏLƏR ÜZRƏ FƏLSƏFƏ DOKTORU EMİN AXUNDZADƏDİR

***- Emin müəllim, artıq Cənub Qaz Dəhlizinin seqmentlərindən olan TANAP layihəsinin istifadəyə verilməsindən 1 il ötür. Əvvəlcə oxucularımıza layihə barədə ümumi məlumat verərdiniz.***

- Cənub Qaz Dəhlizinin ikinci və ən önəmli seqmentini meydana gətirən TANAP boru kəməri ilə bağlı hökumətlərarası müqavilə Azərbaycan və Türkiyə arasında 26 iyun 2012-ci il tarixində imzalanıb. 1850 km uzunluğunda olan TANAP, Türkiyədə 20 şəhərdən və 67 qəsəbədən keçərək, ölkənin Şərqi ilə Qərbini birbirinə bağlayır. İki çıxış nöqtəsi olan boru kəmərinin ilk çıxışı Əskişəhərdə, ikinci çıxışı isə Ədirnə şərhərindədir. 12 iyun 2018-ci il tarixində boru kəmərinin Əskişəhərə qədər olan hissəsi istifadəyə verilib və 30 iyun 2018-ci il tarixindən etibarən "Şahdəniz-2" layihəsi çərçivəsində Türkiyə bazarına kommersiya qazı göndərilməyə başlanıb. İndiyə qədər boru kəmərindən 1,8 milyard kubmetr kommersiya qazı nəql edilib. Bu miqdarın 2019-cu ilin sonuna qədər 4 milyard kubmetrə çatacağı proqnozlaşdırılır. Boru kəmərinin ikinci fazasını meydana gətirən və Əskişəhərdən Ədirnəyə qədər uzanan hissəsinə aprelin 15-dən etibarən sınaq məqsədli qaz vurulmağa başlanıb. Ümumilikdə, TANAP boru kəmərində bütün işlərin 1 iyul tarixinə qədər yekunlaşacağı və boru kəmərinin Avropaya kommersiya qazı ötürmək üçün hazır vəziyyətə gələcəyi planlaşdırılır. İlk mərhələdə 16 milyard $m^3$ daşıma gücünə malik olan boru kəməri əlavə kompressor stansiyaları vasitəsilə 2023-cü ildə 23 milyard $m^3$-ə və 2026-cı ildə 31 milyard $m^3$-ə çatdırılacaq.

***- Bəs TANAP layihəsi Azərbaycan üçün hansı əhəmiyyəti daşıyır?***

- Hər şeydən əvvəl Azərbaycan, tarixində ilk dəfə olaraq öz qazını TANAP vasitəsilə birbaşa Avropa bazarına ixrac edərək, dünyada təbii qazın ən çox idxal edildiyi bazara daxil olacaq. Azərbaycan qazı TANAP-dan əvvəl də Yunanıstanın timsalında, Avropa İttifaqına daşınmaqda idi. Ancaq bu əməliyyat birbaşa deyil, Türkiyə üzərindən həyata keçirilirdi. Beləliklə, Azərbaycan təbii qazda ixrac portfelini şaxələndirəcək və enerji təhlükəsizliyini təmin edəcəkdir. Çünki ixracatçı ölkələr üçün enerji təhlükəsizliyinin ən vacib elementləri məhz hədəf bazarlarının və marşrut yollarının şaxələndirilməsidir. Bu gün dünyada kifayət qədər enerji resursları ilə zəngin olan ölkələr var ki, öz resurslarını xarici bazarlara çıxarmaqda çətinlik çəkirlər. Belə ölkələr əsasən 3-cü tərəflərin boru kəmərlərindən asılı vəziyyətdə olurlar. Bu da həmin ölkələri həm iqtisadi, həm də siyasi cəhətdən asılı vəziyyətdə saxlayır. Ancaq Azərbaycan həm neft, həm də qaz ixrac yollarını kifayət qədər şaxələndirə bilib və öz boru kəmərləri ilə birbaşa dünyanın nəhəng bazarlarına çıxa bilib. Cənub Qaz Dəhlizi layihəsi də məhz bu strategiyanın əsas tərkib hissələrindən biridir. Baxmayaraq ki, bu layihə Avropa tərəfindən hələ 2000-ci illərin əvvəllərində gündəmə gətirilmiş və müxtəlif marşrut yolları təklif edilmişdi, sözügedən layihələrin heç biri həyata keçməmişdir. Azərbaycan isə TANAP layihəsini 2011-ci ildə irəli sürərək Cənub Qaz Dəhlizini konkret bir layihəyə çevirdi. Nəzərə alsaq ki, bu layihə Azərbaycanın öncüllüyündə ərsəyə gəldi, bu, eyni zamanda, Azərbaycanın Avropa nəzdindəki strateji əhəmiyyətini daha da artırdı və tərəflər arasındakı əməkdaşlıq əlaqələrində yeni cığır açdı.

***- Layihə Azərbaycanın iqtisadi inkişafına necə təsir göstərəcək?***

- TANAP layihəsində Azərbaycan dəyər zənciri üzrə bütün həlqələrdə əsas pay sahibidir. Beləliklə, Azərbaycan öz təbii qazını öz boru kəməri ilə daşıyaraq nəqliyyat xərclərini



və risklərini ciddi şəkildə azalda biləcək. Bununla yanaşı, Azərbaycan gələcəkdə üçüncü tərəflərin qaz həcmlərini də TANAP üzərindən daşıyaraq əlavə qazanc əldə edə biləcək. Bütün bunlar təbii olaraq ölkənin iqtisadi inkişafının daha da sürətlənməsinə təkan verəcəkdir.

***- Bəs layihənin Türkiyə üçün əhəmiyyəti nədir?***

- Türkiyə dünyada təbii qaz tələbatı ən sürətli artan ölkələrdən biridir. Belə ki, ölkənin tələbatı son 10 ildə 48% artaraq 35,3 milyard $m^3$-dən 50 milyard $m^3$-ə çatıb. Ancaq buna baxmayaraq təbii qaz hasilatı bu illər ərzində təqribən 3 dəfə azalıb. İstehlakın artması və hasilatın azalması fonunda ölkənin idxaldan asılılığı 97,5%-dən 99,3%-ə yüksəlib. Göründüyü kimi, Türkiyə artan tələbatını qarşılamaq üçün əlavə qaz mənbələrinə ehtiyac duyur. Bu çərçivədə Türkiyə TANAP vasitəsilə ildə 6 milyard $m^3$ qaz alaraq artan tələbatını qarşılaya biləcək.

***- Layihə Türkiyəyə hansı iqtisadi dividentlər qazandıracaq?***

- Bildiyiniz kimi, TANAP boru kəməri keçdiyi şəhər və rayonların iqtisadi inkişafına və ölkədəki işsizlik rəqəmlərinin azaldılmasına böyük töhfə verir. Boru kəmərinin inşaatı müddətində nəqliyyat, xidmət və dəmir-polad kimi bir neçə sektor birbaşa və ya bilavasitə mənfəət əldə etdiyi üçün TANAP-ın Türkiyə iqtisadiyyatına məcmu faydasının, əslində daha çox olduğu görülməkdədir.

Bununla yanaşı, nerji layihələrində əlavə dəyər yaratmaq üçün dəyər zənciri üzrə bütün həlqələrdə iştirak etmək labüddür. TANAP-dan əvvəl Türkiyə bir çox boru kəməri layihələrinə ev sahibliyi edib, ancaq hər birində sadəcə tranzit ölkə mövqeyi ilə çıxış edib. CQD layihəsində isə Türkiyə 4 seqmentin 3-də əsas pay sahiblərindən biridir. Bu da Türkiyə iqtisadiyyatına uzun illər əlavə dəyər qazandıracaq.

***- Yeni TANAP Türkiyə üçün həm də geostrateji baxımdan əhəmiyyətlidir?***

- Bəli, Türkiyənin ən böyük hədəflərindən biri enerji habına çevrilməkdir. Dünyadakı təbii qaz ehtiyatlarının 75%-i Şərqində və bu ehtiyatları ən çox istehlak edən Avropa ölkələri isə Qərbində olan Türkiyə, sahib olduğu geostrateji mövqeyi baxımından üstünlüklərə malikdir. Ancaq bu resursları birbaşa Qərbə daşıyacaq boru kəməri infrastrukturuna ehtiyac var idi. Türkiyə 2001-ci ildə fəaliyyətə başlayan Şərqi Anadolu təbii qaz boru kəməri vasitəsilə ildə 6 milyard $m^3$ Azərbaycandan və 10 milyard $m^3$ İrandan gələn təbii qazı daxildəki şəbəkələrə ötürür. Mövcud kəmərin həcmi əlavə investisiyalarla 25 milyard $m^3$-ə qədər artırıla bilər. Başqa sözlə, Türkiyə bu xətdən əlavə olaraq, 9 milyard $m^3$ qaz daşıya bilər. Bu da əlavə qaz həcmlərinin daşınması üçün kifayət etmir. Hazırkı vəziyyətdə Türkiyənin bu hədəfinə cavab verən yeganə layihə TANAP-dır. Bu istiqamətdə Türkiyə Azərbaycan qazı ilə yanaşı, 3-cü tərəflərin qazını da Avropaya daşıma imkanı əldə edəcək.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# 15 İyun: əbədiyaşar tariximiz

**1993-cü il iyunun 15-i, yəni ulu öndər Heydər Əliyevin xalqımızın təkidli tələbi ilə Azərbaycanda yenidən hakimiyyətə qayıtdığı gün tariximizə Milli Qurtuluş Günü kimi daxil olub. Həmin gün Azərbaycan xalqının tarixində ən əlamətdar bir hadisə kimi qeyd edilir. Milli Qurtuluş Günü ilə əlaqədar müraciət etdiyimiz tanınmış şəxslər də "İki sahil" qəzetinə açıqlamalarında bu günün əhəmiyyətindən ətraflı söz açdılar.**



**Milli Məclisin deputatı Azər Badamov:**

- AXC-Müsavat rejiminin səriştəsizliyi ucbatından ölkəmizdə xaos, böhran hökm sürəndə, iqtisadiyyat iflic vəziyyətə düşəndə xalqımız bu vəziyyətdən çıxış yolu axtarmağa başladı. Xalqımız nicat yolunu ulu öndər Heydər Əliyevin simasında gördü və tərəddüd etmədən onu hakimiyyətə dəvət etdi. Ümummilli Lider xalqın səsinə səs verdi. Sonradan Ulu Öndər bununla bağlı fikirlərini bölüşərkən bu taleyüklü məsələdə, birinci növbədə, xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvəndiyini, arxalandığını bildirmişdir. Şübhəsiz, bu, sözün əsl mənasında, "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib meydana atılan dünya şöhrətli şəxsiyyətin öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi.

Ümummilli Lider qısa zaman kəsiyində respublikamızın strateji inkişaf istiqamətlərini müəyyən etdi. Prezident İlham Əliyev 28 May - Respublika Günü ilə əlaqədar keçirilən rəsmi qəbulda demişdir: "1993-cü ilə qədər müstəqilliyimiz formal xarakter daşıyırdı, ölkəmiz müstəqil siyasət apara bilmirdi. Heydər Əliyevin xalq qarşısında xidmətlərindən biri də o idi ki, Azərbaycan əsl müstəqillik yoluna qədəm qoydu... Bu gün ölkəmiz müstəqil siyasət aparараq, milli maraqların təmin olunmasında çox böyük addımlar atıb, çox böyük uğurlar qazanıb. 2003-cü ildən bu günə qədər Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşdirilir". Artıq bu inkişaf haqqında dünyanın bir sıra nüfuzlu qurumları da öz hesabatlarında ətraflı məlumatlar verirlər. Ona görə də ölkəmizin müstəqilliyinə yeni bir nəfəs gətirən 15 İyun - Milli Qurtuluş Günü, müstəqil Azərbaycanın dövlətçilik tarixinə qızıl hərflərlə yazılıb. 15 İyun - Milli Qurtuluş Günü Azərbaycan durduqca həmişə qeyd olunacaq.



**Milli Məclisin deputatı Fazil Mustafa:**

-Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri çoxdur. Onları saymaqla qurtarmaz. Fikrimcə, Ulu Öndərin ən böyük xidmətlərindən biri ölkəmizi məhv olmaqdan, parçalanmaqdan xilas etməsidir. Sirr deyil ki, o illərdə Azərbaycan öz müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Ulu öndər Heydər Əliyev uzaqgörən siyasəti ilə Azərbaycanı bu bəladan xilas etdi. Belə ki, Ümummilli Lider Gəncədə baş vermiş silahlı qarşıdurmanı ram etdi. Lənkəranda Əlikram Hümbətovun başlatdığı qiyamın dinc yolla aradan qaldırılması da ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bununla Ulu Öndər həm də mesaj verdi ki, Azərbaycanın parçalanmasına heç bir zaman yol verilməyəcək. Ulu Öndər təkcə xalqı və respublikamızı ölüm-dirim mübarizəsindən xilas etmədi, həm də Azərbaycan xalqının itirilmiş inamını, varlığını özünə qaytardı. Bütün bunlara görə 15 iyunun Milli Qurtuluş Günü kimi qeyd edilməsi təqdirəlayiqdir. Bu mənada bu gün Azərbaycanın qüdrətli bir dövlət olması 15 iyunda başlanan yolun uğurudur.



**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru, Xalq artisti Vamiq Məmmədəliyev:**

- Məhz Ulu Öndərin hakimiyyətə qayıdışından sonra dövlətçiliyimiz xilas edildi, sabitlik təmin olundu, nizami ordu yaradıldı, atəşkəsə nail olundu, həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə çox ciddi islahatlar aparıldı, "Əsrin müqaviləsi" imzalandı, iqtisadiyyatımıza böyük həcmdə xarici sərmayə qoyuldu. Üstəlik, respublikamız müstəqil siyasəti ilə beynəlxalq aləmin diqqətini özünə cəlb etdi. Nəticədə üçrəngli bayrağımız beynəlxalq təşkilatların binaları üzərində dalğalandı. Məhz bütün bunlara görə həyatını canından artıq sevdiyi xalqına, ölkəsinə həsr etmiş, zəmanəmizin əbədiyaşar dahisinə çevrilmiş bu müdrik siyasətçi və dövlət xadimi tariximizdə müstəqilliyimizin memarı və qurucusu kimi yer tutub.



**Kənd Təsərrüfatı Nazirliyinin nəzdində fəaliyyət göstərən Fermerlər Şurasının üzvü, "Tərəqqi" medallı İldırım Məmmədov:**

-Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdan kimi ölkə iqtisadiyyatının bazar münasibətləri əsasında inkişafına üstünlük verdi. Yeri gəlmişkən, Ulu Öndər o illərdəki nitqlərinin birində demişdir ki, aqrar sahədə istənilən səviyyəyə qalxmaq, dünyanın inkişaf etmiş ölkələrinin bu sahədəki nailiyyətlərinə çatmaq üçün iqtisadi tədbirlər həyata keçirməliyik. Yəni iqtisadi islahatlar keçirməli, kənd təsərrüfatının idarə olunmasını, mülkiyyət formasını dəyişdirməliyik. Bu məqsədlə də Ulu Öndər ərzaq təhlükəsizliyinin təmin edilməsi, azad sahibkarlığın bərqərar olması istiqamətində müəyyən addımlar atdı, eləcə də sosial ədalət prinsipinə əsaslanan torpaq islahatı həyata keçirdi. Bununla da ümummilli lider Heydər Əliyev respublikamızda aqrar islahatın hüquqi bazasının yaradılması, onun təşkili və həyata keçirilməsi kimi çox mühüm iqtisadi tədbirlərin həm banisi, həm də təşkilatçısı oldu. Məhz bu səbəbdən ölkəmizin siyasi-iqtisadi tarixində "Heydər Əliyevin torpaq islahatları" modeli qızıl hərflərlə öz əksini tapdı.

Bu gün ölkəmizin ümumi iqtisadi inkişaf səviyyəsi və dünya iqtisadiyyatına verdiyi sanballı töhfələr ümummilli lider Heydər Əliyev siyasətinin təntənəsidir və bunu hər bir vətəndaşımız böyük qürur hissi ilə vurğulayır. Onu da deyim ki, ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu aqrar islahatlar bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.



**Xalq artisti, "Şöhrət" ordenli Mənsum İbrahimov:**

-26-cı ildönümünü qeyd edəcəyimiz və tariximizə qızıl hərflərlə yazılmış Milli Qurtuluş Günü Azərbaycanın müasir tarixində ən yaddа qalan günlərdən sayılır. Çünki məhz Qurtuluş Günündən keçən illər ərzində ölkəmiz sürətlə inkişaf edərək dünya birliyinin bir parçasına çevrilib. Bəli, Ulu Öndərin sayəsində mədəniyyətimiz, milli mənəvi dəyərlərimiz də beynəlxalq aləmdə tanınıb. Ulu Öndər deyirdi ki, milli dövlətçilik dəyərlərinin əsasını sağlam düşüncəli mədəniyyət təşkil edir. O, ölkəmizdə belə bir mədəniyyətin formalaşmasına səylə çalışdı və buna nail oldu. İncəsənətin, mədəniyyətin elə bir sahəsi yoxdur ki, orada ümummilli lider Heydər Əliyevin diqqət və qayğısı özünü büruzə verməsin. Musiqimiz, teatrımız, kino sənətimiz, heykəltəraşlıq və rəssamlığımız, xalça sənətimiz bugünkü inkişafında onun dəyərli ideyalarından bəhrələnir.

Fikrimcə, Ulu Öndərin hakimiyyətə qayıtdığı gün yeni Azərbaycanın yarandığı gündür. Mən həmişə demişəm, yenə də deyirəm: xoşbəxt xalqıq ki, bizim Heydər Əliyev kimi Ulu Öndərimiz var. Bu günlərimizə görə biz Ulu Öndərə borcluyuq.



**Azərbaycan Dövlət "Yuğ" Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi İslam Həsənov:**

- 15 iyun 1993-cü il tariximizə Azərbaycanın xilası günü kimi daxil olub. Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı günü milli müstəqil dövlətimizin həyatında, bütövlükdə Azərbaycanın tarixində müstəsna yer tutan günlərdən biridir. Bu gün iqtisadi və siyasi həyatımızın hər bir sahəsində sürətli inkişaf və tərəqqi müşahidə olunur. Üstəlik, Azərbaycan regionun lider dövlətinə çevrilib, ölkəmizin nüfuzu daha da artıb. Bu isə o deməkdir ki, bu gün Prezident İlham Əliyev də Ulu Öndərə xas olan möhkəm iradə və qətiyyətli mövqe nümayiş etdirir.

✍ **Qvami Məhəbbətoğlu, *"İki sahil"***

*Sədaqət Vəliyeva:*

## Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin xilası tarixidir

***1993-cü il iyunun 15-i Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olub və dövlətçiliyimiz yox olmaq təhlükəsindən xilas edilib. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, regionda və dünyada Azərbaycanın nüfuzu daha da artır.***



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, 1993-cü il iyunun 9-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev xalqın təkidli tələbi ilə Bakıya qayıdıb və ölkənin xaos, vətəndaş qarşıdurması, dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən xilas edilməsi tarixi missiyasını həyata keçirməyə başlayıb. 1993-cü il iyunun 15-də Heydər Əliyev Ali Sovetin Sədri seçilib və həmin gün Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi düşüb. Çünki AXC-Müsavat hakimiyyətinin səriştəsizliyi, dövlət idarəçiliyi sisteminin olmaması, 1993-cü ilin əvvəllərindən ölkədə fəaliyyət göstərən silahlı dəstələrin yol verdikləri başıpozuq fəaliyyət, Azərbaycanın daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaranması, ayrı-ayrı bölgələrdə isə separatçılıq və parçalanma meyllərinin baş qaldırması Azərbaycanı bir dövlət kimi varlığına son qoyulması təhlükəsi ilə üzləşdirmişdi. Səriştəsiz rəhbərliyin yarıtmaz fəaliyyəti nəticəsində müstəqilliyimiz süquta uğramaq təhlükəsi ilə qarşı-qarşıya idi. Dövlət əmlakının açıq-aşkar mənimsənilməsi, qeyri-qanuni yolla xaricə satılması, bir sözlə, dövlət əmlakının talan edilməsi adi hala çevrilmişdi. Kriminal düşüncəli şəxslər vəzifəyə gətirilmişdi, ölkədə mənəviyyatsızlıq hökm sürürdü. Daxili İşlər naziri insanları qanunsuz həbs edirdi, məhkəməsiz 700 nəfər məhbusu azadlığa buraxıb silahlandırmışdı. Hakimiyyət daxilində Müsavat, Yurd, "Boz qurd", "boz pencəklilər" və s. kiçik qruplaşmalar yaranaraq biri-birinə qarşı və birincilik uğrunda mübarizə aparırdı. Əli Kərimlinin nəzarətində olan media qurumları Baş Nazir və spikeri ələ salırdı, prezidentin özünə yaxın AXC İcraiyyə Komitəsi rəsmi bəyanatla nazirləri, parlament sədrini dövlətə və ya hakimiyyətə xəyanətdə ittiham edirdi. Əlbəttə ki, bu qüvvələrin hakimiyyətə gəlməsi ilə Azərbaycanın yeni tarixinin ən faciəli dövrü başlanmışdı. Məhz AXC-Müsavat cütlüyünün birillik hakimiyyəti ölkədə anarxiya, xaos, özbaşınalığın tüğyan etməsi, iqtisadiyyatın çökməsi, əhalinin sosial durumunun son dərəcə ağırlaşması, torpaqların işğalı ilə nəticələndi.

Deputat deyib ki, belə bir vəziyyətdə ozamankı hakimiyyət ulu öndər Heydər Əliyevi Bakıya dəvət etməyə məcbur oldu. Xalqın təkidli tələbi və iştirakı ilə Ümummilli Liderimiz Bakıya qayıtdı. Heydər Əliyevin xilaskarlıq missiyası Azərbaycanı məhv olmaqdan, parçalanmaqdan xilas etdi. Ölkəmizdə asayiş və qayda-qanun bərqərar edildi, soyğunçuluğa, vətəndaşların əmlakının qəsb olunmasına son qoyuldu. Nizami ordu yaradıldı, Qarabağ müharibəsində atəşkəs əldə edildi, münaqişənin dinc yolla nizama salınmasına dair danışıqlara başlandı. Həmçinin idarəetmə sistemi formalaşdırıldı, insanlara öz dövlətinə inamı qaytarıldı, neft müqavilələri imzalandı, Azərbaycanın iqtisadi dirçəlişinin əsası qoyuldu. Bir sözlə, ümummilli liderimiz Heydər Əliyevin siyasi rəhbərliyə qayıtması, ölkəmizi məhv olmaqdan xilas etməsi, Azərbaycanı güclü, dinamik inkişaf edən və milli varlığımızı yaşadan dövlətə çevirməsi təkcə bugünkü deyil, gələcək nəsillər, Azərbaycan amalını qəlbində yaşadan bütün insanlar üçün böyük əhəmiyyət kəsb edən dövlətçilik təcrübəsi oldu.

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Heydər Əliyev adına Neft Emalı Zavodu

**laboratoriya mallarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (17031-19/A) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 01 iyul 2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 (tələb olunan surətlərin sayı) surəti olmaqla 12 iyul 2019-cu il, Bakı vaxtı ilə saat 12:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər
Lot №1 üzrə 118 manat (ƏDV daxil),
Lot №2 üzrə 236 manat (ƏDV daxil),
Lot №3 üzrə 295 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944 (AZN)
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.
Intermediary Bank: Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account\IBAN: AZ28IBAZ38110018409306332120 (USD)
Intermediary Bank: Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 (EUR)

İŞTIRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Bank təminatı:***
* İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-dək məbləğdən aşağı olmamalıdır
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5% məbləğində müəyyənləşdirilir.

***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 1 ay ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1060, Bakı şəhəri, Nizami rayonu,
O.Vəliyev küçəsi 1, 3-cü inzibati bina
**Əlaqələndirici şəxs:**
Quliyeva Sona
Maddi-texniki təchizat şöbəsinin mühəndisi
+994 12 521 00 00 Daxili: 17998
+994 12 521-23-51.
Sona.Guliyeva@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 12 iyul 2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 15:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**SOCAR-ın Satınalmalar Komitəsi**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Heydər Əliyev adına Neft Emalı Zavodu

**santexnika mallarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (17032-19/A) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 28 iyun 2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 (tələb olunan surətlərin sayı) surəti olmaqla 10 iyul 2019-cu il, Bakı vaxtı ilə saat 12:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 118 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944 (AZN)
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.
Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account\IBAN: AZ28IBAZ38110018409306332120 (USD)
Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 (EUR)

İŞTIRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Bank təminatı:***
* İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-dək məbləğdən aşağı olmamalıdır
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5% məbləğində müəyyənləşdirilir.

***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 1 ay ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1060, Bakı şəhəri, Nizami rayonu,
O.Vəliyev küçəsi 1, 3-cü inzibati bina
**Əlaqələndirici şəxs:**
Quliyeva Sona
Maddi-texniki təchizat şöbəsinin mühəndisi
+994 12 521 00 00 Daxili: 17998
+994 12 521-23-51.
Sona.Guliyeva@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 10 iyul 2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 15:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**SOCAR-ın Satınalmalar Komitəsi**

YUBİLYAR

# 50 yaşın astanasında

Müəllim kimi savadlı, insan kimi səmimi, vətəndaş kimi vətənpərvər, jurnalist kimi müşahidəçilik qabiliyyətinə, aydın təfəkkürə və dərin təhliletmə bacarığına malik olan Mübariz Əhmədov "Azərbaycanlı" imzası ilə oxuculara və jurnalist cameəsinə yaxşı tanışdır. Onu şəxsən tanıyanlar bu insanın özünəməxsus keyfiyyətlərinə - vətənpərvərliyinə, dövlət mənafeyinə sadiqliyinə və tərcümeyi-halına yaxından bələddirlər. Bu yazı sözün həqiqi mənasında bu mübariz azərbaycanlını oxucularımıza daha yaxından tanıtmaq məqsədi daşıyır.

Mübariz Əhmədov 12 iyun 1969-cu ildə Saatlı rayonunun Musalı kəndində çoxuşaqlı ailədə dünyaya gəlib. Doğma rayonunda orta təhsilini tamamlayan Mübariz Əhmədov Əli Bayramlı şəhər (hazırda Şirvan şəhəri) Sənaye Texnikumunu bitirib və həmin ilin mayında Vladivostok şəhərinə hərbi xidmətə göndərilib. Sakit Okean hərbi dəniz donanmasında 3 illik hərbi xidmətini baş gəmi çavuşu rütbəsində uğurla başa vurduqdan sonra, Vladivostok şəhərində oxumaq niyyəti ilə qalmağa qərar verib. Beləliklə, 1998-ci ildə Uzaq Şərq Dövlət Universitetinin jurnalistika fakültəsinin məzunu olub.

O, hələ tələbəlik illərində Vladivostok şəhərində "Avanqard" adlı qəzetlə əməkdaşlıq edərək, müxbir kimi fəaliyyət göstərib.

Vətənpərvərliyi ilə seçilən Mübariz Əhmədov yaşadığı şəhərdə "Primoriya Azərbaycan Diasporu" ictimai təşkilatının yaradılmasında yaxından iştirak edib və bu təşkilatın İdarə Heyətinin üzvü, eləcə də mətbuat xidmətinin rəhbəri olub.

Mübariz Əhmədov 1999-cu ildə Vladivostokda "Azərbaycan" adlı ictimai-siyasi və mədəni-maarif mövzusunda müstəqil qəzet təsis edib və onun baş redaktoru kimi peşəkar fəaliyyətini davam etdirib. "Azərbaycan" ilə bağlı Mübariz Əhmədov qeyd edir ki, bu illər ərzində qəzet üstünlüyü əsasən Qarabağ həqiqətlərinə, Azərbaycan tarixinə, Azərbaycandan olan xəbərlərə və Vladivostokda yaşayan soydaşlarımızın fəaliyyətinə yer verib: "Qəzetimizin əsas məqsədi Primoriya oxucularına Dağlıq Qarabağ məsələsində Azərbaycanın haqlı mövqeyini anlatmaq idi. Qəzet Vladivostok şəhərində 70 yerdə fəaliyyət göstərən "Rospeçat"a aid qəzet köşklərində satılırdı. Bundan əlavə, əyalətə də göndərilirdi. "Azərbaycan" yalnız öz missiyasını deyil, həm də vətəndən 12 min kilometr uzaqda yaşayan soydaşlarımızı bir araya gətirir, diaspor təşkilatının görə biləcəyi işləri də yerinə yetirə bilirdi. Buna görə də qısa zaman kəsiyində "Azərbaycan" hər bir soydaşımızın sevimlisinə çevrilmişdi. Təkbaşına yaratdığım redaksiyaya sonradan bir neçə əməkdaş cəlb etdim və redaksiyanın tədbirlər planını hazırlayıb mütəmadi olaraq Azərbaycan naminə fəaliyyətimizi davam etdirdik. Müxtəlif bayramlarda və rəsmi tədbirlərdə vətəndən uzaqda yaşayan soydaşlarımızı bir araya gətirib Azərbaycan adına çalışmaq əsas məqsədimiz idi. Bir sözlə, "Azərbaycan"



Primoriya diyarında yaşayan soydaşlarımızın əsl ruporuna çevrildi".

Primoriya Jurnalistlər İttifaqının və Rusiya Jurnalistlər Birliyinin üzvü olan Mübariz Əhmədov bu illər ərzində Qarabağla bağlı yazılarına görə ermənilər tərəfindən dəfələrlə hədələrə, təhdidlərə və təqiblərə məruz qalıb. Özünün də qeyd etdiyi kimi, 31 Mart soyqırımı, 20 Yanvar faciəsi, Xocalı soyqırımı ilə bağlı qəzetdə verilən silsilə yazı və şəkillərə görə onu "xüsusi yerlərə" dəvət edib "profilaktik söhbətlər" də ediblər. Amma bütün bunlara baxmayaraq mübariz azərbaycanlı Mübariz Əhmədov Azərbaycan həqiqətləri naminə öz yolundan dönməyərək işini inamla davam etdirib.

O, 2000-ci ildə Rusiya Elmlər Akademiyasının Uzaq Şərq filialının Arxeologiya və etnoqrafiya İnstitutunun dəstəyi ilə "Azərbaycanlıların Rusiyanın Uzaq Şərqinə miqrasiyası və onların uyğunlaşması problemləri" adlı elmi məqaləsini adıçəkilən institutun "XX əsrdə etnik miqrantların Primoriyada uyğunlaşması" adlı elmi məqalələr toplusunda dərc etdirib. M.Əhmədov bu məqalədə soydaşlarımızın Rusiyanın Uzaq Şərqinə miqrasiyasını üç istiqamət üzrə - hərbi xidmət, Baykal Amur Magistralının tikintisi və Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə siyasəti apardığı nəticəsində öz yurdlarından qaçqın və məcburi köçkün düşmələrini əsas səbəb kimi göstərib.

2002-ci ildən Bakıda yaşayan və öz ixtisası üzrə pedaqoji fəaliyyətlə məşğul olan Mübariz Əhmədov hazırda Bakı Slavyan Universitetinin jurnalistika kafedrasının dosenti və tələbələrin ən sevimli müəllimlərindən biridir. O, bu illər ərzində neçə-neçə gənc jurnalistin nəzəri və praktik biliklərə yiyələnməsi, həmçinin bu peşənin incəliklərinə bələd olmaları üçün öz bilik və bacarığını əsirgəməyib.

2013-cü ildə AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq institutunda "Jurnalist etikasının problemləri" mövzusunda elmi işini müdafiə edib, 2014-cü ildə fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi, həmçinin 2018-ci ildə isə jurnalistika kafedrası üzrə dosent elmi adı alıb. Mübariz Əhmədov bir monoqrafiya, səkkiz tədris proqramı, iyirmi iki elmi məqalənin müəllifidir.

Mübariz Əhmədov pedaqoji fəaliyyəti ilə yanaşı, həm də hazırda ölkə mediasında "Mübariz Azərbaycanlı" imzası ilə müstəqil jurnalist kimi dövlətimizin mənafeyini dəstəkləyən siyasi-sosial xarakterli analitik yazılarla mütəmadi olaraq çıxış edir.

**Sevinc Abdullayeva,**
***"İki sahil"***

***"İki sahil" qəzetinin kollektivi də yubilyarı 50 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona möhkəm cansağlığı və işlərində uğurlar arzulayır!***

# Uğurların başlanğıcı



"Azərbaycan dövlətinin və xalqının taleyinə qızıl hərflərlə yazılmış, müstəqilliyimizin əbədiliyinin zəmanəti olan, hər bir azərbaycanlının həyatında unudulmaz yer tutan qürurverici tarixi hadisələrimiz kifayət qədərdir. Bu tarixi günlərdən biri də şübhəsiz ki, 15 İyun - Milli Qurtuluş Günüdür". **Bu sözləri qəzetimizə açıqlamasında YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov söylədi.** Təşkilat sədri bildirdi ki, bu tarixi günün mahiyyətini dərk etmək, anlamaq üçün öncə 15 iyun gününə qədər baş verən hadisələrə nəzər salmaq, onları təhlil etmək gərəkdir: "Belə ki, 1990-cı illərin əvvəllərində yenicə müstəqillik qazanmış xalqımız ağır sınaqlarla üz-üzə qalmışdı. O zamankı xarici qüvvələrin əlaltısı olan hakimiyyətin siyasi səriştəsizliyi nəticəsində dövlətimizdə hərc-mərclik, xaos, özbaşınalıq baş alıb gedirdi. Tarixi torpaqlarımızın bir-birinin ardınca işğal edilməsi, ölkədəki vəziyyətin getdikcə acınacaqlı duruma düşməsi ciddi həyəcan siqnalı idi. 1993-cü ilin əvvəllərindən ölkədə fəaliyyət göstərən bəzi silahlı dəstələrin yol verdikləri başıpozuq hərəkətlər, Azərbaycanın daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaranması, ayrı-ayrı bölgələrdə separatçılıq və parçalanma meyillərinin baş qaldırması Azərbaycanın bir dövlət kimi varlığına son qoyulmasına hesablanmışdı".

"Təəssüflər olsun ki, o zamankı hadisələrin ağır nəticələrini bu gün də dövlətimiz və xalqımız öz çiyinlərində daşımağa məhkumdur. Hər bir dövlətin və xalqın taleyində ciddi sınaqlarla üzləşdiyi vaxtlar olur. Lakin o dövlət və xalq belə sınaqlardan üzüağ, alnıaçıq, heç bir zərər görmədən çıxa bilir ki, onun inanılmış və müdrik siyasi lideri olsun. Məhz belə bir vaxtda dövləti məhv olmaqdan xilas etmək üçün ölkə rəhbərliyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevi Bakıya dəvət etmək qərarına gəldi. Bakıya qayıdandan sonra Surət Hüseynovla danışıqlar aparmaq məqsədilə Gəncəyə yola düşən ulu öndər Heydər Əliyev Milli Məclisin iclasında Gəncə hadisələri ilə bağlı arayış verdi. Beləliklə, iyunun 15-də Milli Məclisdə Heydər Əliyev istefa vermiş İsa Qəmbərin yerinə parlamentin sədri seçildi. O zamandan dövlətimizin və xalqımızın həyatında problemlərin həll olunması üçün bir yol açılmış oldu. Tədricən ölkəmiz düşdüyü vəziyyətdən çıxış yolları tapmağa başladı və bugünkü günlərə gəlib çıxdı", - deyə R.Göyüşov vurğuladı.

YAP Binəqədi rayon təşkilatnın sədri bildirdi ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu qurtuluş tariximiz bu gün çiçəklənmə dövrünü yaşayır: "Biz inanırıq ki, ölkəmiz bundan sonra da çoxsaylı uğurlara imza atacaq, dövlətimiz və xalqımız dövlət başçısı Prezident İlham Əliyevin uzaqgörən siyasəti və uğurlu fəaliyyəti sayəsində dünyadakı nüfuzunu daha da möhkəmləndirəcək".

**Taleh Bağırov,**
***"İki sahil"***

# Uzaq Polşanı Ələt Beynəlxalq Limanı ilə hansı tellər birləşdirəcək?

Paytaxtımızın yaxınlığında yerləşən Ələt Beynəlxalq Dəniz Ticarət Limanının imkanları getdicə genişlənir. Limanın yük qəbuletmə, saxlama və yolasalma şəraiti hətta xarici ölkələrin də diqqətini cəlb edib. Bu diqqəti səciyyələndirən ən başlıca amil isə limanın Avrasiyanın qovuşuğunda yerləşməsidir. Dəniz limanının belə strateji mövqeyə malik olması dünya ölkələri üçün çox əlverişlidir. Ona görə də nəqliyyat qovşağına maraq göstərənlərin sayı getdikcə artmaqdadır.

Bir neçə gün əvvəl Bakıda səfərdə olan Polşa Prezidenti Andjey Duda Azərbaycan Prezidenti İlham Əliyevlə mətbuata birgə bəyanatında bu barədə belə deyib: "Hazırda mən səbirsizliklə gözləyirəm ki, hər iki ölkənin biznes icması görüşsün. Hesab edirəm ki, Sizin ölkənizdəki Ələt Beynəlxalq Dəniz Ticarət Limanında yaradılan azad sənaye zonasında Polşa şirkətlərinin də nümayəndəliyi olmalıdır. Sizin ölkəniz artıq bir qovşağa çevrilməkdədir və istərdik ki, Polşa şirkətləri buraya gəlməklə, fəaliyyət göstərməklə bizim mübadilələrimizə böyük töhfə versinlər. Biz Bakının yaxınlığında yerləşən Ələt Beynəlxalq Dəniz Ticarət Limanının imkanlarından istifadə etmək istəyirik. Ümidvarıq ki, Polşa şirkətləri bu imkanlardan yararlanacaq".

Qeyd edək ki, Polşa-Azərbaycan münasibətləri siyasi baxımdan yüksək səviyyədə olsa da, ticarət dövriyyəsi elə də böyük deyil. Bu səbəbdən hazırda iki ölkə arasındakı əlaqələrin inkişafında başlıca məqsəd istisadi əlaqələri yüksək səviyyəyə çatdırmaq, ortaq layihələri hərəkətə gətirməkdir. Polşa prezidenti çıxışı zamanı təklif etdi ki, bu limanda yaradılan azad sənaye zonasında Polşa şirkətlərinin də nümayəndəliyi olsun. Nəzərə almaq lazımdır ki, Ələt Beynəlxalq Dəniz Ticarət Limanına təkcə Polşa deyil, digər xarici ölkələr



də maraq göstərirlər. Polşanın Ələt limanında nümayəndəliyinin açılması Azərbaycan iqtisadiyyatına müsbət təsir edər. Polşa Azərbaycanla Avropa İttifaqı arasında strateji sazişin qısa müddətdə imzalanmasında və Azərbaycanın Dünya Ticarət Təşkilatına üzv olmasında maraqlıdır. Hər iki məsələnin müsbət həlli Azərbaycan-Polşa strateji münasibətlərini daha yüksək səviyyəyə qaldıracaq.

Yada salaq ki, yaxın keçmişdə -sovetlər dönəmində biz Polşa mallarını böyük həvəslə alırdıq. O zaman polyakların istehsal etdikləri yaraşıqlı kostyumlar, köynəklər, ayaqqabılar, mebellər, billur qablar Azərbaycanda "defisit" sayılırdı və biz o malları baha qiymətə və çətinliklə alırdıq. Ancaq indi elə şərait yaranır ki, biz bu ölkənin mallarını ucuz qiymətlərlə ala biləcəyik.

Vurğulamaq lazımdır ki, Polşa digər Avropa ölkələrindən fərqlənir. Çünki bu ölkədə 1990-cı illərdə geniş iqtisadi islahatlar aparıldı. Həmin islahatlar özünü müsbət şəkildə doğrultdu. Polşa iqtisadiyyatı hazırda yeni inkişaf mərhələsindədir. Qərbi Avropa ölkələri bu ölkəyə külli miqdarda investisiya yatırırlar. Bu səbəbdən adıçəkilən ölkə öz iqtisadiyyatını genişləndirmək üçün nəqliyyat yolları axtarır. Məlumdur ki, nəqliyyat xərcləri istehsal olunan məhsulun rəqabət qabiliyyətinə təsir edir. Ələt Beynəlxalq Ticarət Dəniz Limanı Polşa üçün hazırda əlverişli nəqliyyat yolu sayılır. Polşanın əksər Avropa ölkələri ilə, eyni zamanda, Azərbaycanla münasibəti yaxşıdır. Fərəhli faktdır ki, artıq Azərbaycan ticarət mərkəzi kimi dünyada tanınır. Azərbaycanın həm dənizə çıxışı, həm də avtonəqliyyat və dəmir yolu xəttinə malik olması xarici ölkələrin diqqətini cəlb edir. Bu qəbildən olan Polşa ilə ticarət və nəqliyyat əlaqələrinin qurulması və genişləndirilməsi hər iki ölkənin xeyrinə olacaq.

**Vəli İlyasov,**
***"İki sahil"***

# "Nəsimi İli"nə həsr olunmuş şeir müsabiqəsi başa çatıb





Yeni Azərbaycan Partiyası (YAP) Biləsuvar rayon təşkilatı tərəfindən rayonun ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdləri arasında Azərbaycanın dahi şairi İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş şeir müsabiqəsi keçirilib.

60 şagirdin iştirak etdiyi müsabiqədə səsləndirilən əsərlərdə İmadəddin Nəsiminin Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarından olduğu bir daha öz ifadəsini tapıb. Eyni zamanda, İmadəddin Nəsiminin anadilli şeirin humanist ideyalarla, yeni məzmun və bədii lövhələrlə daha da zənginləşdirilməsində misilsiz xidmətləri olduğu qeyd edilib. Bildirilib ki, dahi şairin şeirlərində, qəzəllərində dərin poetik fikirlər, fəlsəfi görüşlər və dövrün elm-fəlsəfi düşüncəsi aydın ifadə edilir.

Münsiflər heyətinin qərarı ilə şeir müsabiqəsində qalib gəlmiş şagirdlər Fəxri fərmanla mükafatlandırılıblar.

**Taleh Bağırov,**
***"İki sahil"***

*Vüqar Bayramov:*

# Ermənistan iqtisadiyyatı xarici investorlar üçün cəlbedici deyil



2019-cu ilin birinci rübündə Ermənistana yatırılan birbaşa xarici investisiya axını 7,6 milyon dollar təşkil edib. Bu barədə Ermənistan Milli Statistika Xidməti məlumat yayıb. Bu, ötən ilin analoji dövrü ilə müqayisədə dəfələrlə aşağı göstəricidir. Belə ki, 2018-ci ilin ilk rübündə Ermənistana yatırılan birbaşa investisiyalar 83,6 milyon dollar təşkil edib.

Belə ki, cari ilin ilk rübündə Ermənistana ən çox xarici investisiya Rusiyadan qoyulub. Rusiyadan sonra bu ölkəyə xarici sərmayə yatıran əsas ölkələr isə İtaliya, Livan, Finlandiya, Kipr və Birləşmiş Ərəb Əmirlikləridir.

Göründüyü kimi, Paşinyan hökumətinin ciddi səylərinə baxmayaraq xarici sərmayələr ölkədən qaçır. Yeri gəlmişkən onu da qeyd edək ki, bu günlərdə Nikol Paşinyan Ermənistanda akkreditə olunmuş xarici ölkələrin diplomatik nümayəndələri ilə görüşüb. Paşinyan deyib ki, Ermənistanın ən böyük problemlərindən biri xarici investisiya ilə bağlıdır. Belə məlum olub ki, xarici sərmayədarlar ölkəyə investisiya qoymaqda maraqlı deyillər: "Biz ölkəmizdə xarici investisiyalar üçün ən cəlbedici şərait yaratmaq üçün əlimizdən gələni edirik".

Eyni zamanda, Paşinyan onu da qeyd edib ki, müstəqil fəaliyyət göstərən məhkəmə sistemi olmadan bu məsələ tam həll olunmayacaq. Çünki hər hansı bir investor onun investisiyalarının, əmlakının təminatına zəmanət istəyir: "Lakin belə bir zəmanət yalnız müstəqil məhkəmə sistemi tərəfindən verilə bilər".

Sözügedən məsələyə aydınlıq gətirən iqtisadçı ekspert Vüqar Bayramov mövzu ilə bağlı qəzetimizə açıqlamasında xarici investorların işğalçı Ermənistana maraq göstərməməsini bir sıra amillərlə əlaqələndirdi: "Bu gün Ermənistan bütün dünyada təkcə təcavüzkar kimi yox, həm də xarici yardımlardan asılı və kənardan kömək olmadan mövcudluğunu qoruyub saxlaması mümkünsüz olan bir dövlət kimi tanınır. Son illər Qərb ölkələri və erməni diasporu tərəfindən ayrılmış maliyyə vəsaitlərinin öz təyinatı üzrə istifadə olunmaması Ermənistana göstərilən yardımların ilbəil azalmasına gətirib çıxarıb. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və digər beynəlxalq maliyyə qurumlarından Ermənistana ayrılan kreditlərin də korrupsiyaya məruz qaldığı barədə xeyli faktlar aşkar olunub. İşğalçı ölkə özünün reabilitasiya imkanlarını tamamilə itirib. Qeyd edim ki, 2019-cu ilin əvvəlinə Ermənistanın xarici borcları 5 milyard dolları keçib. Belə vəziyyət hələ bir neçə il davam edəcək. Paşinyanın bir sıra cəhdlərinə baxmayaraq xarici sərmayədarlar Ermənistan iqtisadiyyatına investisiya qoymaqda maraqlı deyillər. Səbəblərdən biri Ermənistan iqtisadiyyatının kiçik və rentabellik səviyyəsinin aşağı olmasıdır. Ermənistan iqtisadiyyatı regionda xarici investorlar üçün cəlbedici deyil".

V.Bayramovun sözlərinə görə, ermənilərin özləri də bu gün sosial böhran və çöküş astanasında olan Ermənistanı gələcəyi olmayan, qeyri-müstəqil dövlət sayır, ölkəni tərk etmək məcburiyyətində qaldıqlarını bildirirlər: "Ermənistan Milli Statistika Xidmətinin məlumatına görə, 1991-ci ildən sonra Ermənistan əhalisinin sayı 20 faizdən çox azalıb. Ölkəni tərk edənlərin əksəriyyəti geri qayıtmaq istəmir. Bütün bunların səbəbi isə birbaşa iqtisadi böhranla əlaqədardır. Ermənistanda cəlbedici iqtisadiyyat olmadığına görə, bu, investorların ölkə iqtisadiyyatına marağının daha da azalmasına gətirib çıxarır. Baxmayaraq ki, Paşinyan bununla bağlı islahatların aparılacağını demişdi, amma hələlik ortada real iş yoxdur. Başqa bir tərəfdən, Ermənistanda investisiya mühitinin yaxşılaşması böyük zaman tələb edir. Orada sərmayə mühiti əlverişli vəziyyətdə deyil. Ona görə də yaxın illərdə Ermənistan iqtisadiyyatına xarici sərmayə qoyuluşunun artacağı gözlənilmir".

**Cavid Əkbərov,**
***"İki sahil"***

*Oynamağa utanmayan Paşinyan:*

# "siyasi şoular" orbitinin təlxəyi



Dağlıq Qarabağ münaqişəsi başlanandan bəri dünyada özü haqqında "məzlum xalq" obrazı yaratmağa çalışan Ermənistanın mənfur niyyətinin başa çıxdığı anlar çox olsa da, həyasızlığı genlərində əsrlərdən bəri daşıyan daşnaklar hələ də tarixin dərslərindən ibrət götürmürlər. Sələfləri kimi dara düşəndə quyruğu qısılmış tülkü kimi hiyləgərliklərini işə salaraq vəziyyətdən çıxmaq fəndgirliyini davam etdirən Ermənistanın baş naziri Nikol Paşinyanın son günlərdə üzləşdiyi biabırçılıqlardan xəcalət çəkməməsi onu göstərir ki, olmayan "tarixini", "mədəniyyətini" dünya ictimaiyyətinə sırımaq istəyən bu millətin həqiqət hesab etdiyi bütün iddiaları miflər üzərində qurulub. İsbata ehtiyacı olmayan reallıq isə budur ki, bütün müstəvilərdə saxta arqumentlərə əsaslanan ermənilərin milli xüsusiyyətləri kimi, siyasətləri də yalan və böhtanlardan ibarətdir.

Ermənistanın qeyri-səmimi münasibətlərini , idarə olunan siyasətini əks etdirən bəzi tarixi məqamları xatırlamaqla deyilənləri sübuta yetirmək olar. Əsl həqiqət budur ki, ermənilərin quraşdırdıqları yalanların qarşısını alan güclü sipər Azərbaycan -Türkiyə birliyidir.

Bir neçə il əvvəl Cənubi Qafqazda maraqlarını gerçəkləşdirmək istəyən dövlətlərin nümayəndələrinin - ABŞ dövlət katibinin, Rusiyanın, Fransanın, İsveçrənin xarici işlər nazirlərinin, Avropa Şurası Nazirlər Komitəsi təmsilçisinin, Avropa Birliyinin xarici siyasət məsələləri üzrə ali nümayəndəsinin iştirakı ilə imzalanan Sürix protokolu da daxil olmaqla, Dağlıq Qarabağla əlaqədar keçirilən bütün görüşlərdə erməni məkrinin izi açıq-aşkar duyulurdu. Sürix protokolunun ratifikasiyasından imtina edən Ermənistan diplomatiya tarixində görünməyən bir rəzilliyə imza atdı, qeyri-ciddi dövlət olduğunu təsdiqlədi. Türkiyə ilə Ermənistan arasında sərhədlərin açılmasını dəstəkləyən qüvvələr rəsmi İrəvanın " erməni soyqırımı"nın tanınması istəyinə də "hə" demədilər. Çünki Qərbdə də , Avropada da yaxşı bilirdilər ki, tarixdə "erməni soyqırımı" adlı faciə yaşanmayıb.

Daşnakların quraşdırdıqları "erməni soyqırımı"nın 100 illiyi ərəfəsində Fransada baş verənləri xatırlayaq. Fransada Osmanlı İmperiyasında 1915-ci il hadisələrinə dair erməni iddialarının əks olunduğu ədalətsiz qərarın qəbulu da erməni yalanlarını doğrultmadı. Qərarda qeyd olunurdu ki, "erməni soyqırımı"nı tanımayanlar ya həbs olunmalı və yaxud cərimə ödəməlidirlər. Amma əhalinin haqlı tələbini nəzərə alan Fransa Konstitusiya Məhkəməsi bu ədalətsiz qərarı ləğv etməklə ermənilərə tarixi sillə vurdu.

Bu günədək Türkiyənin arxivlərin açılması təklifinə susqunluğu ilə cavab verən Ermənistanın bu hərəkəti də sübut edir ki, işğalçı dövlətin dili havadarlarının göstərişi ilə "açılır."

Daxili və xarici siyasətində diplomatik qaydalara riayət etməyən, beynəlxalq aləmdə üzərinə düşən məsuliyyətin çəkisini anlamayan, məkrli siyasi gedişləri ilə qeyri-səmimi yanaşma prinsipinə sadiq qalan Ermənistanın hoqqabazlığı Fransanın Rambue qəsrində keçirilən görüşü gülüş doğuran bəhanə ilə yarımcıq tərk edən sabiq prezident Robert Koçaryanın hiyləgərliyində də hiss olundu. Bu kimi faktlar çoxdur.

Çox təəssüf ki, siyasəti oyuncağa çevirən Ermənistanın uşaqlara xas hərəkətləri ərköyünlük, guya heç nə olmamış kimi anlaşılaraq bağışlanır. Amma əslində belə deyil. Məğlubların susmağa üstünlük verməsi təbii hal, qanunauyğunluqdur.

ABŞ rezidentlərinin 24 apreldə "erməni soyqırımı" ifadəsini işlətməmələri daşnakları məyus etsə də, həyasızlıqlarından əl çəkməyən ermənilərə dərs olmur. Hələ də işğalçıya lazımi təsir və təzyiqlər göstərilmir.

Sələflərindən ərməğan qalan ələbaxımlılıq siyasətini davam etdirən Ermənistanın baş naziri Nikol Paşinyanın "idarəetmə üsulu" əvvəlki iqtidarlardan heç nə ilə fərqlənmir. "Küçə siyasəti" ilə hakimiyyətə yiyələnən Paşinyanın "fəaliyyətinə" nəzər salmaqla onun məqsəd və məramını aydın başa düşmək olar. Keçirdiyi azsaylı rəsmi görüşlərdə siyasətdə naşı olduğu üçün həmişə gülünc vəziyyətdə qalan Paşinyanı düşündürən yalnız şəxsi məqsədləri naminə kimlərdənsə qisas almaqdır. Sabiq prezidentlərə və onların komandalarına qarşı həyata keçirdiyi qisasçılığı "rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizə" adı ilə pərdələməyə çalışan baş nazir bu günədək onu kresloya əyləşdirən ermənilərin sosial islahatlarla bağlı tələblərinin heç birinə əməl etməyib. Bəlli olan budur ki, o da əvvəlki dövlət başçıları kimi keçirdiyi bütün görüşləri məğlub kimi tərk edib. Davos İqtisadi Forumunda da etinasızlıqla üzləşən Paşinyanı ermənilər məyusluqla qarşıladılar.

Bu günlərdə Qazaxıstanın paytaxtı Nur-Sultanda Belarusun, Qazaxıstanın, Rusiyanın, Qırğızıstanın, Ermənistanın daxil olduğu Avrasiya İqtisadi İttifaqının yaranmasının 5 illiyi ilə əlaqədar keçirilən sammitdə quruma üzv ölkələrin başçılarına yubiley medalları təqdim olunub. Yubiley medalına layiq görülməyən yeganə üzv Ermənistanın baş naziri Paşinyan olub. Bu, "fərqləndirmə" təkcə bir şəxsə deyil, bütünlükdə Ermənistanın xarici siyasətinə verilən qeyri-kafi qiymət idi.

Bu günlərdə Fransa inzibati məhkəməsinin bu ölkənin Arnuvill şəhəri ilə Azərbaycanın işğal altında olan Xocavənd rayonu arasında imzalanmış "Dostluq haqqında xartiya"nı qeyri-qanuni adlandıraraq ləğv etməsi Azərbaycan diplomatiyasının qələbəsidir.

Bu kimi biabırçılıqlar fonunda Paşinyanın hələ də "bir qarış torpaq verməyəcəyik" kimi çağırışları daxili gərginliyi sakitləşdirmək üçün növbəti ritorik gedişdir.

İyunun 6-da Sankt-Peterburqda Rusiya Prezidenti Vladimir Putinlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında çoxdan gözlənilən görüşdə Dağlıq Qarabağ məsələsinin diqqət mərkəzində olmaması da Paşinyanı məyus edib. Havadarından gözlədiyi dəstəyi ala bilməyən Paşinyan Rusiya ilə Ermənistana satılan qazın qiymətində anlaşma əldə etməyə çalışsa da, bu sahədə də istəyinə nail ola bilməyib.

Belə ki, işğalçı ölkənin təzə rəhbərliyi inqilab yolu ilə devirib yerinə keçdiyi Sarkisyan rejiminin "Qarabağ kursu"nu davam etdirir. Bu yolun hara, nəyə apardığı isə bəllidir: Dəyişilməyən iqtisadi böhran, yoxsulluq, ölkədən kütləvi köç, Rusiyadan davam edən vassal asılılığı, kasıb əhalinin boğazından kəsilərək silahlanmaya yönələn vəsait.

İrəvanla Xankəndi arasında ixtilafın dərinləşməsi, Ermənistanda güclənən etirazlar, "sabiqlərin" Paşinyana qarşı təşkil etdikləri qrupların fəallaşması işğalçı ölkədə yeni inqilabın çox da uzaqda olmadığına işarədir.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## “Neftqaztikinti” Tresti

**Sendviç daş yun panelə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25100-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 04.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 11.07.2019-cu il, Bakı vaxtı ilə saat: 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər üzrə 118 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
Beneficiary Bank: The International Bank of Azerbaijan RepublicAZ38IBAZ38010019449306332120, Customer Service DepartmentVÖEN: 9900003871, SWIFT: İBAZAZ2XMüştəri xidməti Departamenti, Nizami str., 67Kod: 805250, Phone: (+99450) 493-68-23Müxbir hesab: AZ03NABZ01350100000000002944, Beneficiary: State Oil Company of Azerbaijan Republic VÖEN: 9900001881, TAX İD: 9900003871SWIFT BIK: İBAZAZ2X.Account No: AZ23IBAZ38110018269306332120 Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main Intermediary Bank: Deutsche Bank Trust Company Americas,New York S.W.I.F.T: COBADEFFS.W.I.F.T: BKTRUS33ACC # 400 88 660 3001ACC # USD 04-164-504Beneficiary Bank: The International Bank of Azerbaijan Republic “ Customer Service DepartmentBeneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service DepartmentSWIFT: İBAZAZ2XSWIFT: İBAZAZ2XBeneficiary: State Oil Company of Azerbaijan Republic-Beneficiary: State Oil Company of Azerbaijan RepublicTAX İD: 9900003871TAX İD: 9900003871Account No: AZ08IBAZ38110019789306332120 EURAccount \ IBAN AZ28IBAZ38110018409306332120 USD

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 30 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

**Bank təminatı:**
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, “Neftqaztikinti” trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:**
Fətullayev Səlim
Maddi Texniki Təchizat və Marketinq şöbəsinin mühəndisi
Telefon nömrəsi: +994 12 521-00-00 25-141
Korporativ mobil: +994 50 842 51 41
Elektron ünvan: selim.fatullayev@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 11.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**“Neftqaztikinti” Trestinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## “Neftqaztikinti” Tresti

**Mühafizə çəpərinə və metal torlu darvazaya olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25112-19) üzrə müvafiq tarixlərin dəyişdirilməsini elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 04.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 11.07.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-ə qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər üzrə 118 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
Beneficiary Bank: The International Bank of Azerbaijan RepublicAZ38IBAZ38010019449306332120, Customer Service DepartmentVÖEN: 9900003871, SWIFT: İBAZAZ2XMüştəri xidməti Departamenti, Nizami str., 67Kod: 805250, Phone: (+99450) 493-68-23Müxbir hesab: AZ03NABZ01350100000000002944, Beneficiary: State Oil Company of Azerbaijan Republic VÖEN: 9900001881, TAX İD: 9900003871SWIFT BIK: İBAZAZ2X.Account No: AZ23IBAZ38110018269306332120 Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main Intermediary Bank: Deutsche Bank Trust Company Americas,New York S.W.I.F.T: COBADEFFS.W.I.F.T: BKTRUS33ACC # 400 88 660 3001ACC # USD 04-164-504Beneficiary Bank: The International Bank of Azerbaijan Republic “ Customer Service DepartmentBeneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service DepartmentSWIFT: İBAZAZ2XSWIFT: İBAZAZ2XBeneficiary: State Oil Company of Azerbaijan Republic-Beneficiary: State Oil Company of Azerbaijan RepublicTAX İD: 9900003871TAX İD: 9900003871Account No: AZ08IBAZ38110019789306332120 EURAccount \ IBAN AZ28IBAZ38110018409306332120 USD

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 30 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

**Bank təminatı:**
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

**V. Satınalan təşkilatın ünvanı:**
AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, “Neftqaztikinti” Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:**
Fətullayev Səlim
Maddi Texniki Təchizat və Marketinq şöbəsinin mühəndisi
Telefon nömrəsi: +994 12 521-00-00 25-141
Korporativ mobil: +994 50 842 51 41
Elektron ünvan: selim.fatullayev@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 11.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**“Neftqaztikinti” Trestinin Satınalmalar qrupu**

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

iki sahil

Son səhifə

16

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 104 (7359) / Çərşənbə, 12 iyun 2019-cu il


# Yaponların sevimli qaşığı... "XASİ"



İlk çubuq təxminən 3000 il əvvəl yaranıb. Bunu çinlilər fikirləşib. Taxta çubuqlar bambuqdan hazırlanırdı və kəlbətinə oxşayırdı. Əvvəlcə onlar yemək hazırlanmasında rahatlıq üçün nəzərdə tutulmuşdu. Taxta kəlbətinlərlə yeməyi çevirmək çox rahat idi. Onların köməyi ilə isti yeməkləri çevirən aşpazın əllərini yandırmaq ehtimalı da azalırdı. Çubuqların uzunluğu 38 sm idi, qida qəbulu üçün onlar 25 sm-ə qədər kiçildi. Tezliklə bu ənənəni digər xalqlar, o cümlədən yaponlar da mənimsədi. Yaponiyada onlar "xasi" adını alıb.

Quru yeməkləri taxta çubuqla yemək asandır. Tikəni iki taxtanın arasına qoyursan və udursan. Bəs yapon xalqı duru yeməkləri necə yeyir? Bəlkə yaponlar ümumiyyətlə, sup xörəkləri yemir? Yeyirlər, ancaq özünəməxsus şəkildə. Birinci quru yeməklər verilir, onlar quru tikələri supa batırıb çeynəyirlər, daha sonra isə bulyonu içirlər.

Yaponlar deyirlər ki, qaşıq və çəngəllərlə bundan sonra da istifadə etmək niyyətində deyillər. Çünki onlar ağzına dəmir əşyalar salmaq istəmir. Taxta çubuq isə daha təbiidir. Yeri gəlmişkən, bizim ulu babalarımız da taxta qaşıqlardan istifadə ediblər.

Ənənəyə görə xasi ağacdan düzəldilir, material kimi bambuk, sərv, ağcaqayın, gavalı istifadə edilir. Xasi dəyirmi və ya kvadrat kəsimli ola bilər. Onları bəzən lak və sədəflə bəzəyirlər. Gözəl hədiyyə kimi bəzədilmiş xasi təqdim etmək ayıb deyil. Yeni evlənənlər belə hədiyyəni minnətdarlıqla qəbul edirlər. Onlarda bu ayrılmazlıq və birlik rəmzidir. Ənənəyə əsasən, çubuq şəxsi əşya sayılır, onu istifadə üçün başqa birinə vermək qəbul edilməyib. Bu məqsədlər üçün bircə dəfə istifadə edilən xasilər var. Xasilər xüsusi altlıqlarda saxlanılır.

Yaponlar təkcə bir il ərzində 30 milyarddan çox çubuq istehsal edir. Çində və Rusiyada da xasini ağacdan alırlar.

Yaponlar hesab edir ki, çubuqlar xüsusilə güclü iştahı olan insanlara lazımdır. Çünki qaşıqla yemək daha rahatdır, taxta çubuqla bir tikəni tutmağa çalışana qədər ağızda olan yeməyi daha çox və diqqətlə çeynəməyi çatdırmaq mümkün olacaq. Yeni ağızda olan qida iri-iri udulmayacaq. Yeməyə başlayandan 15-20 dəqiqə sonra toxluq hissi gəlir və orqanizm artıq qida tələb etmir. Bundan başqa, mədə çox çeynənmiş qidanı daha yaxşı həzm edir.

# Günəşdən özünüzü gözləyin...



Günəş şüalarından kifayət qədər qorunmadıqda günəş yanıqları qaçılmaz hal alır. Günəş kremi istifadə edərək yanmalardan qorunmaq ən yaxşı tədbirdir.

Evdə sadə üsullarla günəş yanıqlarını müalicə etmək olar.

**Xiyar:** Xiyar qabığını soyduqdan sonra suyunu sıxıb, yanmış yerə yüngül toxunuşla gündə 2-3 dəfə tətbiq edə bilərsiniz. Xiyar tərkibində olan vitaminlər sayəsində dərinizi yeniləyəcək və günəş yanığının səbəb olduğu yanma və ağrı hissləri azalacaq.

**Zeytun yağı:** Zeytun yağı yanma müalicəsi üçün geniş istifadə olunan bir üsuldur. Yanmış dərinin qurumasını aradan qaldırır, dəriyə yumşaqlıq və canlılıq hissi verir, yanıqdan yaranan yanma və ağrı hissini yüngülləşdirir.

**Qatıq:** Yanan dərini rahatladır. Yanan bölgəni tamamilə müalicə etməsə də, yanma və ağrı hissini azaltdığı məlumdur. Gündə 3-4 dəfə tətbiq oluna bilər.

**Aloe Vera:** Ən təsirli vasitələrdən biri olan aloe bitkisinin yanıqların müalicəsi üçün möcüzəli təsiri olduğu göstərilir. Bu bitki ilə siz günəş yanıqlarını qısa müddətdə sağaldıb dərinizi bərpa edə bilərsiniz.

**Alma sirkəsi:** Alma sirkəsi bədən üçün çox faydalıdır. Xüsusilə dəri təmizləyici vasitə kimi tövsiyə edilən alma sirkəsi ilə günəş yanığını asanlıqla müalicə etmək olar. Gündə 3-4 dəfə dərinin nəmləndirilməsi və ağrıları azaltmaq üçün yanmış sahəyə tətbiq etmək olar.

**Günəş yanıqları olan zaman bol su içmək vacibdir**

Həddindən artıq günəş şüasına məruz qalmış dəri quruyur. Dərinin nəm səviyyəsini qorumaq üçün mümkün quruluğun və həddindən artıq su itkisinin qarşısını almaq üçün bol su içilməlidir.

**Bir neçə gün ərzində sağalmayan yaralara diqqət edin**

Sadə günəş yanığı 2-3 gün ərzində solmağa başlayır. Lakin yanan bölgələrdə suluğun əmələ gəlməsi və dərinin şişməsi halında həkimə müraciət edin.

**Röya Rasimqızı,**
***"İki sahil"***

# "Microsoft" yeni əməliyyat sisteminin inkişafını davam etdirir




"Microsoft" şirkəti ən yeni əməliyyat sisteminin yaradılması istiqamətində fəal iş aparır. İnsayderlər yeni platformanın "Windows"la ümumi xüsusiyyətləri olmadan tam müstəqil olacağını proqnozlaşdırırlar.

Milli.Az bildirir ki, bundan əlavə, interfeys, əməliyyat rejimi və digər mühüm parametrlər istifadəçilərin əksəriyyəti üçün çox gözlənilməz olacaq. İstehsalçı, əməliyyat sisteminin ilkin olaraq öz görünüşü və iş sürəti ilə çoxlu sayda insanı cəlb edə biləsində maraqlıdır.

Bununla yanaşı, istehsalçılar, bu əməliyyat sisteminin gələcəkdə müxtəlif cihazlar və qadjetlərdə istifadə oluna biləcəyini anons ediblər. "Windows"un qeyri-adi xüsusiyyətləri arasında, fon yeniləməsinin tətbiqi olacaq ki, bu da aktual proqramda heç vaxt istifadə edilməyib.

# Buffon sabiq klubuna qayıdır



PSJ-dən ayrılan əfsanəvi italiyalı qapıçı Canluici Buffon sabiq klubu "Parma"ya qayıda bilər.

Milli.Az "La Gazetta dello Sport"a istinadən xəbər verir ki, "Parma" 41 yaşlı qolkiperə təklif göndərib. Daha bir mövsüm oynamaq istəyən təcrübəli qolkiper bu təklif müsbət yanaşır.

Klub rəsmiləri Buffonla görüşüb və ilkin danışıqlar baş tutub.

Buffon 13 yaşında "Parma"nın akademiyasına qoşulub. İtaliya millisinin sabiq üzvü 2002-ci ildə 52,8 milyon avroya "Yuventus"a keçmişdi.

# DE ROSSİNİN YENİ KLUBU BƏLLİ OLDU



"Roma"dan ayrılan Daniele De Rossi karyerasını Avropadan kənarda davam etdirəcək.

Milli.Az xəbər verir ki, italiyalı yarımmüdafiəçi ABŞ-ın "Los-Anceles" klubunun təklifini qəbul edib. 35 yaşlı futbolçunun transferinin tezliklə rəsmən açıqlanacaq.

De Rossi 2000-ci ildən "Roma"da çıxış edirdi. İtaliyalı futbolçu "canavarlar"da 615 oyun keçirib və bu klub tarixində ikinci ən yaxşı göstəricidir.

Təcrübəli futbolçu 2007 və 2008-ci illərdə "Roma" ilə İtaliya kubokunu qazanıb. O, 2007-ci ildə İtaliya Super kubokunun da qalibi olub.

**ALLAH RƏHMƏT ELƏSİN!**

SOCAR-ın "Azneft" İB-nin Qaz Anbarlarının İstismarı İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi "SOCAR Upstream" MMC-nin direktoru Şaiq Bəkirova, qardaşı

**Sahib Bəkirovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Təsisçi: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ

Baş redaktorun I müavini: İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB38030019443700306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 12.06.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8215
İndeks: 0151, Sifariş: 1938

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "AzadInform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.